**Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!**


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

19
İYUN
2020-ci il
№ 97 (4228)
Qiymәti
40 qәpik

www.baki-xeber.com

Hәftәdә
5 dәfә çıxır

Qәzet
2003-cü ildәn
nәşr olunur


# PAŞİNYANÇI MEDİA ÜÇÜN «EV TAPŞIRIĞI» - ERMƏNİSTANIN BƏLALARININ KÖKÜ RUSİYA VƏ İRANDIR

■ səh. 6 ■

Beynəlxalq banklar kapitalının Azərbaycana pandemiya dövründə artan marağının əsasları - Prezidentin dalbadal videokonfransları...

■ səh. 3 ■

Azərbaycan - İsrail hərbi-ticari əməkdaşlığı Ermənistana daha bir gözdağı verir...

■ səh. 9 ■

Erməni mediası ölkədəki proseslərin əsl mahiyyətini dəqiq ifadə edir - özəl sektorun məhvi, kapital yığımı, mülkiyyətin yeni bölgüsü...

■ səh. 6 ■

Azərbaycanın yenə neft bazarının əsas oyunçularından biri olacağı dünya miqyasında təsdiqlənir

■ səh. 11 ■

Paşinyan repressiyaları genişləndirir, "azadlıq carçısı" beynəlxalq təşkilatlar susur... Rusiyada kölgə oyunu...

■ səh. 10 ■

Azərbaycanın turizm sektorunun postpandemiya dövrü üçün inkişaf meyllərinə Dünya Bankının marağı...

■ səh. 12 ■

Pandemiyada Azərbaycan üçün mütləq əksər dövlətlərdən fərqli daha bir pozitiv - bizdə problemli kreditlər 0,2 faiz azalıb

■ səh. 12 ■

Bir neçə böyük xəstəxana koronavirusla mübarizə rejiminə keçid üçün bağlandı - Azərbaycanda artan yoluxmalara adekvat əks tədbirlər də artır

■ səh. 13 ■



## Postpandemiya dövrü böhranını idarə etmək üçün Azərbaycanın ehtiyac hiss etdiyi strategiya...

■ səh. 3 ■



**İqtisadi inkişafdakı əsasən iki istiqaməti Azərbaycan Prezidenti Dünya Bankına belə təqdim etdi...**

■ səh. 5 ■

Məsuliyyətsiz vətəndaşların üzündən Azərbaycan icazə ilə evdən çıxma rejiminə yenidən qayıtmaq zorunda qaldı - 21 iyundan 5 iyuladək...

■ səh. 4 ■



Ermənistanda 2018-ci ildən başlayan proses - Paşinyanın demokrat obrazı sürətlə dağılır, diktator imici güclənir...

■ səh. 7 ■

**Azərbaycan çap mediasının yeni maliyyələşmə mərhələsi başladı - pozitiv gücə malik yeniliklər var, baş redaktorların proqnozları...**

■ səh. 8 ■

Ermənistanda bütün anti-Soros fəallar Paşinyanın hədəfində - ölkədə anti-Rusiya ovqatının yeni təzahürü...

■ səh. 7 ■



"Deksametazon koronavirusa qarşı dərmandır" sözü eşidilən kimi apteklərimizə hücum başlayıb - həkimlər nə deyir...

■ səh. 15 ■



## Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı təbrik etdi

**Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib.**

Təbrikdə deyilir:

"Hörmətli cənab Prezident, Əziz Qardaşım,

Qardaş Türkiyə Respublikasının nümayəndəsi cənab Volkan Bozkırın Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının Sədri vəzifəsinə seçilməyi münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyiniz altında həyata keçirilən Türkiyə diplomatiyasının ardıcıl və uğurlu fəaliyyəti sayəsində ölkəniz beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır. Şəxsi təşəbbüsünüzün nəticəsində BMT sistemi tarixində Türkiyə nümayəndəsinin ilk dəfə belə mühüm vəzifəyə seçilməsi xəbəri bizi olduqca sevindirdi.

Əminəm ki, Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri birgə səylərimizlə çoxtərəfli müstəvidə də uğurla davam edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, qardaş Türkiyə xalqına daim rifah diləyirəm".

## Milli Qəhrəman Pəhlivan Fərzəliyevin oğlu Prezidentə müraciət etdi - bunları görməmək mümkün deyil...

**"Mən Azərbaycanın Milli Qəhrəmanı şəhid Pəhlivan Fərzəliyevin oğluyam. Sizin sayənizdə ötən il işə qəbul olundum. ...Sizin şəhid ailələrinə, Qarabağ müharibəsi əlilləri və veteranlarına, məcburi köçkünlərə diqqət və qayğınız yüksək səviyyədədir. Bunları görməmək mümkün deyil.**

...Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkəmizin inkişafı yolundakı addımlarınızı bəyənən və bu dəyərlərlə yaşayan insanam. Sizə öz adımdan, ailəmin adından, Milli Qəhrəman ailələri adından, Füzuli rayon sakinləri adından dərin təşəkkürümü bildirirəm.

Dünyanı bürüyən koronavirusla bağlı lazımlı addımlarınız da təqdirəlayiqdir. Sizin kimi Vətənini, xalqını sevən Prezidentimiz olduğu üçün biz çox da əziyyət çəkmədik. Sosial vəziyyəti aşağı olan ailələrə birdəfəlik ödəmələr və yardımlar edilməsi xalqa böyük kömək etdi. Sizin və Mehriban xanımın birillik əməkhaqqınızı koronavirusla bağlı yaradılmış fonda ianə etməyiniz çox böyük, humanist addım idi.

Bütün bunlara görə bir daha sizlərə təşəkkür edir, uzun ömür, cansağlığı arzulayıram. Biz - Milli Qəhrəman və şəhid övladları Sizin əsgərlərinizik. Sizin əmr və göstərişiniz kifayət edir ki, atalarımız kimi Vətənin müdafiəsinə qalxaq".

Bu fikirlər Nizami rayonunda məskunlaşmış Füzuli rayonundan məcburi köçkün, Milli Qəhrəmanı şəhid Pəhlivan Fərzəliyevin oğlu Fərzəliyev Xaliq Pəhlivan oğluna məxsusdur.

*Baki-xeber.com*

## Dünya pandemiyanın cəngində, Azərbaycanda isə... - Şirvandan Azayeva Gülnarə xanımın Prezidentə məktubu...

**"Bütün dünyada geniş yayılmış və dövlətlərin olduqca çətin vəziyyətə düşdüyü koronavirus pandemiyası dövründə Sizin rəhbərliyiniz altında ölkəmizdə çox ciddi tədbirlər həyata keçirilir.**



Vətəndaşlarımıza dövlət tərəfindən göstərilən maddi dəstək, səhiyyə işçilərinin əməkhaqlarının artırılması, yeni modul tipli xəstəxanaların istifadəyə verilməsi, xəstəxanalarda müalicəyə cəlb olunmuş xəstələrə göstərilən hərtərəfli qayğı, infeksiyanın yayılma sürətinin azaldılması üçün Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və bir sıra rayonlarda xüsusi karantin rejiminin sərtləşdirilməsi digər dövlətlərlə müqayisədə infeksiyadan daha az itki ilə çıxmağımıza böyük kömək göstərir. Bütün bunları görərək, Sizə minnətdarlıq etməyi özümə borc bilirəm.

Mən fəxr edirəm ki, Sizin kimi dövlət başçımız var və bir vətəndaş olaraq olduqca rahatam ki, xalqımızın üzləşdiyi bu çətin günlərdə də çıxış yolu tapıb xalqımızı öz arxanızca aparacaqsınız. Xalqımızın sağlam gələcəyi naminə həyata keçirdiyiniz bütün tədbirlərə görə ailəmin adından Sizə və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya çox-çox minnətdarlıq edirəm".

Bunları Şirvan şəhərindən Azayeva Gülnarə Vilayət qızı Prezident İlham Əliyevə yazdığı məktubda bildirib.

*Baki-xeber.com*

# Putin və Əliyev Rusiya-Azərbaycan sərhədində yaranmış vəziyyəti müzakirə etdi

**İyunun 18-də Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinə zəng edib.**

Prezidentin Mətbuat Xidmətindən baki-xeber.com-a verilən məlumata görə, dövlət başçısı Azərbaycanda karantin tədbirlərinin uzadılması ilə əlaqədar Moskvada Qələbənin 75 illiyinə həsr olunmuş hərbi paradda əvvəlcədən planlaşdırılmış iştirakının mümkün olmadığını təəssüf hissi ilə bildirib və qeyd edib ki, ölkəmiz bu tədbirdə Müdafiə naziri və Azərbaycan Ordusunun 75 nəfər hərbi qulluqçusu ilə təmsil olunacaq.

Vladimir Putin vəziyyətə anlayışla yanaşdığını qeyd edərək, telefon zənginə görə təşəkkürünü bildirib.



Dövlət başçıları Rusiya-Azərbaycan sərhədində yaranmış vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

Prezident İlham Əliyev bildirib ki, Rusiya Prezidenti ilə bu il mayın 18-dəki telefon danışığından ötən dövr ərzində Samur keçid məntəqəsindən 700-ə yaxın, bütövlükdə bir ay ərzində isə quru və hava yolları ilə 1000-ə yaxın Azərbaycan vətəndaşı Rusiyadan ölkəmizə gətirilib.

Prezidentlər müvafiq dövlət strukturlarına sərhəddə vəziyyətin tənzimlənməsi ilə əlaqədar əlavə tapşırıqların verilməsi barədə razılaşıblar.

# Əmək... Nazirliyinin 25 əməkdaşında koronavirus aşkarlandı

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 25 əməkdaşı koronavirus (COVİD-19) infeksiyasına yoluxub. Baki-xeber.com xəbər verir ki, bu barədə nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov mətbuata açıqlama verib.**




Onun sözlərinə görə, onlardan 3-ü Dövlət Məşğulluq Xidmətinin işçisi (1 nəfər 5 saylı ərazi Məşğulluq Mərkəzinin, 1 nəfər 4 saylı ərazi Məşğulluq Mərkəzinin, 1 nəfər Şəmkir rayon Məşğulluq Mərkəzinin əməkdaşıdır); 6-sı Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin işçisi,16 nəfər isə Dövlət Sosial Müdafiə Fondunun işçisidir (1 nəfər Fondun Aparatının, 11 nəfər Qobustan şəhər şöbəsinin, 4 nəfər Yevlax şəhər şöbəsinin əməkdaşıdır).

**Nazirlik rəsmisi qeyd edib ki, xəstələrin vəziyyəti yaxşıdır və müalicələri davam edir: "Hazırda nazirlik əməkdaşlarının virusdan qorunması üçün ciddi profilaktik tədbirlər davam edir, bu istiqamətdə maarifləndirmə və digər zəruri tədbirlər görülür.**

Nazirlik də hər kəsi aidiyyəti qurumların çağırışlarına ciddi əməl etməyə, virusdan qorunma üçün tətbiq edilən izolyasiya və gigiyenik tədbirləri gündəlik həyat tərzinə çevirməyə çağırır".



# Nazarbayev də koronavirusa yoluxdu

**Qazaxıstanın ilk Prezidenti Nursultan Nazarbayev koronavirusa yoluxub.**

Trend-in məlumatına görə, bu barədə respublika administrasiyasının mətbuat xidmətindən bildiriblər.

Məlumata görə, hazırda N.Nazarbayev özünütəcrid rejimində müalicə alır.

Səhhəti ilə bağlı narahatlığa əsas olmadığı qeyd edilir.

# Postpandemiya dövrü böhranını idarə etmək üçün Azərbaycanın ehtiyac hiss etdiyi strategiya...

**Prezident İlham Əliyev Dünya Bankının təşəbbüsü ilə bankın Avropa və Mərkəzi Asiya regionu üzrə yeni təyin olunan vitse-prezidenti xanım Anna Byerde, Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus və bankın digər nümayəndələrilə keçirilən videokonfrans zamanı postpandemiya dönəmilə bağlı planlardan danışıb:**



## *Günay Hüseynova: "Əsasən iqtisadiyyatın daha çox zərər görən sahələrinin dirçəldilməsi prosesinə ehtiyac duyulacaq"*

"Mən, həmçinin, məhkəmə sistemimizə dəstəyinizə görə minnətdarlığımı bildirmək istərdim. Mən şəxsən yeni məhkəmə binalarımızın açılış mərasimində iştirak etmişəm. Təkcə binalar deyil, həmçinin sistemlər, texnologiyalar. Bütün bu layihələr Dünya Bankının dəstəyi ilə həyata keçirilmişdir. Pandemiya ilə əlaqədar vəziyyəti nəzərə alaraq, təbii ki, postpandemiya dövrü böhranını idarə etmək üçün bizim ölkə strategiyasına ehtiyacımız var. Çünki bizim iqtisadiyyatımızın bəzi sahələri ciddi şəkildə zərər çəkdi. Xüsusilə də yaxşı nəticələrimiz olan və son 4 ildə artımın olduğu turizm sahəsi. Həqiqətən Azərbaycan turizm xəritəsində maraqlı istiqamətə çevrilib. Beləliklə, pandemiyadan sonra biz bu sektoru canlandırmaq və Azərbaycanı yenidən xarici turistlər üçün cəlbedici etmək istiqamətində çox çalışmalıyıq. Çünki turizm sərbəst konvertasiya olunan valyuta yaradan sektorlardan biridir. Qeyri-neft və qeyri-qaz ixracından gələcək daha çox sərbəst konvertasiya olunan valyuta ehtiyatlarına ehtiyacımız var. Ona görə də kənd təsərrüfatı, turizm, texnologiya, düşünürəm ki, bizim diqqətimizi cəmlədiyimiz əsas sahələr olacaq".

Göründüyü kimi, ölkə başçısı postpandemiya dövrü böhranını idarə etmək üçün bizim ölkə strategiyasına ehtiyacımızın olduğunu bildirir. Postpandemiya böhranı deyəndə nə nəzərdə tutulur?

İqtisadçı ekspert Günay Hüseynova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Dünya Bankı nüvüzlu qurumdur və hər bir ölkə onunla yaxından əməkdaşlıq etməyə maraq göstərir: "Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumu olan Dünya Bankının əsas məqsədi iqtisadi keçid dövründə olan inkişaf etməkdə olan ölkələr başda olmaqla, digər üzv ölkələrin iqtisadi inkişafına nail olmaqdır. Bu qurumla ölkəmiz 1992 -ci ildən əməkdaşlıq etməkdədir. Bu əməkdaslıq çərçivəsində ölkə əhəmiyyətli bir çox layihələrə imza atılıb. Prezident İlham Əliyevlə Dünya Bankının yeni Vitse-prezidenti xanım Anna Byerde ilə, həmçinin Bankın Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus və bankın digər nümayəndələri arasında videokonfrans keçirilib. Konfrans zamanı postpandemiya böhranını idarə etmək üçün orijinal strategiyaya ehtiyac duyulduğu bildirilib. Bütün dünya ölkələrini öz təsiri altına alan koronavirus (COVİD-19) Azərbaycan iqtisadiyyatından da yan keçmədi. Son altı ay ərzində ölkə iqtisadiyyatında 2 % azalma müşahidə edilib. İlin sonunadək isə iqtisadi artım templərinin zəifləməsi və istehsalın çox da kritik olmayan səviyyədə aşağı düşməsi müşahidə olunacaq. Bu da ümummilli məhsulun, həmçinin də Ümum Daxili Məhsulun staqnasiyası ilə xarakterizə olunur. Əsasən bu iqtisadi konyunktura iqtsadi partlayışdan sonra gəlməkdədir və qarşısı alınmazsa, resessiyadan depressiyaya keçəcək. Neftin qiymətinin kəskin düşməsi, həmçinin də virusla əlaqədər müxtəlif sektorlarda xərclərin artmasıyla əlaqədar olaraq ölkə iqtisadiyyatı fiskal şoklara məruz qalıb.

Buna gğrə də bizim postpandemiya dönəmi üçün yeni strategiyanı təşkil etməyimizə zərurət yaranır. Bunun nəticəsində biz optimal balans səviyyəsini tapmalıyıq. Azərbaycanın çox mükəmməl inkişaf strategiyası var. İqtisadiyyatın inkişafını təmin etmək üçün ciddi Yol Xəritələri ortaya qoyulub. Bu o anlama gəlir ki, postpandemiya ilə bağlı təkliflər həmin strategiyaların ruhuna uyğunlaşdırılacaq. Köklü bir yeniliyə ehtiyac olmayacaq. Əsasən iqtisadiyyatın daha çox zərər görən sahələrinin dirçəldilməsi prosesinə ehtiyac duyulacaq".

*Məhəmmədəli QƏRİBLİ*

# Beynəlxalq banklar kapitalının Azərbaycana pandemiya dövründə artan marağının əsasları - Prezidentin dalbadal videokonfransları...

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyevlə Dünya Bankının təşəbbüsü ilə bankın Avropa və Mərkəzi Asiya regionu üzrə yeni təyin olunan vitse-prezidenti xanım Anna Byerde, Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus və bankın digər nümayəndələri arasında videokonfrans keçirilib.**




## *Elşən Əliyev: "Azərbaycanın iqtisadi tərəfdaş kimi etibarlılığı barədə dünyada yekdil rəy formalaşıb"*

Xatırladaq ki, bir müddət əvvəl Prezident İlham Əliyevin daha bir maliyyə nəhəngi olan Asiya İnkişaf Bankının təşəbbüsü ilə bankın prezidenti Masatsuqu Asakava, vitse-prezidenti Şiksin Çen və bankın rəhbərliyinin digər nümayəndələri ilə də videokonfrans formatında görüşü keçirilmişdi. Hər iki görüşdə müzakirə olunan mövzuların mahiyyətindən hiss edilir ki, əllərində kifayət qədər maliyyə cəmləşən beynəlxalq qurumlar Azərbaycanla, hətta pandemiya dönəmində belə, əməkdaşlıqda maraqlıdır. Belə marağın səbəbini nə ilə izah etmək olar?

İqtisadçı Elşən Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hər iki maliyyə nəhənginin ölkəmizlə əməkdaşlıq marağı yalnız indiki çətin dönəmi əhatə etmir:"Azərbaycanın iqtisadi tərəfdaş kimi etibarlılığı barədə dünyada yekdil rəy formalaşıb. Biz bunun ilkin simptomlarını pandemiya dönəmində də gördük. Bir çox aparıcı qurumların hesabatlarında bu məqam xüsusilə qeyd edilir. Biz heç bir qurumdan dəstək almadan mübarizə işlərini apardıq və buna paralel olaraq, iqtisadiyyatın da inkişafına müəyyən töhfələr vermişik. 2020-ci il Dünya Bankının qiymətləndirmə reytinqinə görə biz ilk 20-likdə qərar tutmuşuq. Bunu dünyanın bütün nüfuzlu maliyyə qurumları bilir. Prezidentin son görüş keçirdiyi Dünya Bankı və Asiya İnkişaf Bankı xüsusilə belə nüanslara ciddi fikir verir. Bu səbəbdən də belə ciddi maliyyə qurumları bizimlə əməkdaşlıq etməyi özləri üçün daha prioritet sayırlar. Asiya İnkişaf Bankının və Dünya Bankının Azərbaycanla bağlı layihələri əvvəl də olub. Ölkə başçısı hər iki görüşdə bu məsələyə detallı toxunub. Həmin qurumlarla əməkdaşlıq bizim üçün də çox önəmlidir. Onlar bizim ölkədə müxtəlif profilləri əhatə edən layihələrə dəstək veriblər. Biz Cənubi Qafqazın ən inkişaf etmiş ölkəsiyik. Biz neft ölkəsi olsaq da, qeyri-neft sektorunun inkişafında maraqlı olduğumuz üçün onların ölkəmizlə əməkdaşlığı nəzərdən qaça bilməzdi. Ölkə başçısı ilə videkonfrans formatında keçirilən hər iki görüş zamanı da qurumlar ölkəmizə yeni investisiya yatırımları etməyi planladıqlarını bildiriblər. Onların gələcək prioritetləri sırasında kənd təssərrüfatı və təhsil sahəsi də olacaq. Belə banklarla əməkdaşlıq həm də ona görə əhəmiyyətlidir ki, buradakı ekspertlərin də əməyindən istifadə olunacaq. Bu da yeni və gəlirli iş yerlərinin açılması anlamına gəlir.

Dünya Bankı maliyyə resurslarının bölgüsünü təmin edən və qlobal iqtisadi inkişaf məqsədlərinə xidmət edən bir təşkilatdır. Bu qurumun qarşısına qoyduğu əsas məqsədlərdən ən başlıcası ölkələrdə sabit və davamlı inkişafa nail olmaq, yoxsulluğun səviyyəsini minumuma endirməkdir. Dünyanın müxtəlif ölkələrində olduğu kimi, Azərbaycanda da iqtisadiyyatın və bir çox sosial-mədəni sahələrin inkişafında bu təşkilatın əvəzsiz rolu olub.

**Dünya Bankı ilə ölkəmiz artıq 28 ildir əməkdaşlıq edir. Bu qurumla ölkənin iqtisadi inkişafı üçün investisiya axınına nail olmaq, dövlətin institusional imkanlarının artırılması, neft ehtiyatlarının səmərəli istifadə edilməsi və digər iqtisadi aspektlər baxımından əməkdaşlıq edilməkdədir. Hər iki bankla əməkdaşlıq çərçivəsində Azərbaycan iqtisadiyyatı 3 dəfə artıb, bu dönəm ərzində makroiqtisadi sabitlik qorunub. Məhz bu amillər bizi əməkdaşlıq üçün cəlbedici edir".**

*Məhəmmədəli QƏRİBLİ*

# Məsuliyyətsiz vətəndaşların üzündən Azərbaycan icazə ilə evdən çıxma rejiminə yenidən qayıtmaq zorunda qaldı - 21 iyundan 5 iyuladək...

**Azərbaycanda xüsusi karantin rejimi avqustun 1-dək uzadılır. "Trend"in məlumatına görə, bunu Operativ Qərargahın keçirdiyi brifinqdə Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva deyib. Onun sözlərinə görə, Azərbaycanda epidemioloji vəziyyət təhlil olunub və bu qərar qəbul olunub.**




### Bəzi şəhər və rayonlarda xüsusi karantin rejimi tətbiq edilir

L.Abdullayeva deyib ki, 1-ci klastr üzrə ciddi karantin şərtlərinə ehtiyac yaranıb. Onun sözlərinə görə, 21 iyundan 5 iyul 06:00-a qədər ciddi karantin rejimi elan olunacaq. 1-ci klastr üzrə Bakı, Gəncə, Yevlax, Sumqayıt, Lənkəran şəhərləri və Masallı, Cəlilabad, Abşeron rayonları üzrə SMS xəbərdarlıq və xüsusi icazə ilə evdən çıxmaq qaydası tətbiq ediləcək, eləcə də ticarət mərkəzlərinin fəaliyyəti, ictimai iaşə obyektlərində yerində xidmətlər dayandırılacaq:

"Həmçinin, bərbərxana və gözəllik salonları, muzeylərin fəaliyyəti dayandırılacaq. 65 yaşdan yuxarı şəxslərin hərəkəti qadağan edilmir. Bakı metropoliteninin fəaliyyəti məhdudlaşdırılmır. Park və istirahət mərkəzləri də fəaliyyət göstərəcək".

### Azərbaycanın karantin təcrübəsi dünya ölkələri tərəfindən təqdir olunur

XİN sözçüsü bildirib ki, Azərbaycanın karantin təcrübəsi dünya ölkələri tərəfindən təqdir olunur. Onun sözlərinə görə, əsas məqsəd ölkədə virusun qarşısının alınmasıdır: "Bunun üçün biz qaydalara riayət etməliyik, infeksiyanın yayılmasının qarşısını almalıyıq. Biz bunun üçün lazım olan bütün tədbirləri görürük".

### Buraxılış və qəbul imtahanları təxirə salınacaq?

Buraxılış və qəbul imtahanları ilə bağlı müzakirələrin aparıldığını deyən L.Abdullayevanın sözlərinə görə, 2 həftə ərzində buraxılış və qəbul imtahanları təxirə salına bilər: "Buraxılış və qəbul imtahanları növbəti həftələrə keçirilə bilər. Bu barədə Təhsil Nazirliyi ilə də müzakirələr aparılır. Nazirlər Kabinetinin qərarında bu məsələyə aydınlıq gətiriləcək, amma ola bilsin ki, Naxçıvanda bu imtahanlar vaxtında keçirilsin".

### Sərhədlər avqustun 1-dək bağlı qalacaq

L.Abdullayeva bildirib ki, sərhədlərin bağlı qalma müddəti də avqustun 1-dək uzadılır. Onun sözlərinə görə, bəzi ölkələrin Azərbaycana aviareysləri bərpa etməsi ölkələr arasında razılıq əsasında həyata keçirilə bilər: "Artıq xarici ölkələrdə müvəqqəti olan vətəndaşların Azərbaycana gətirilməsi istiqamətində işlər görülür. Mərhələli halda vətəndaşlar Azərbaycana gətirilir. Bunun karantin rejimində dayandırılması gözlənilmir. Amma sərhədlər avqustun 1-dək bağlı olacaq. Beynəlxalq reyslər isə qarşılıqlı razılıq əsasında bərpa oluna bilər".

### ...metro və marşrut avtobusları işləyəcək

L.Abdullayeva bildirib ki, xüsusi karantin dövründə metropolitenlə yanaşı, avtobuslar da fəaliyyətini davam etdirəcək. Onun sözlərinə görə, ictimai nəqliyyatın fəaliyyətinə qadağa olmayacaq: "Şəxsi avtomobillərdən istifadəyə isə yalnız işləməsinə icazə verilən şəxslərə iş saatları ərzində icazə veriləcək. Digər vaxtlarda avtomobillərin hərəkəti qadağan ediləcək".

### Son bir ayda 1000-ə yaxın vətəndaş Azərbaycana gətirilib

XİN sözçüsü bildirib ki, Rusiyada yaşayan vətəndaşlarımız səbrli olmalı və Azərbaycana gətirilmələrini gözləməlidirlər. Onun sözlərinə görə, Azərbaycanın digər ölkələrdə qalan vətəndaşlarının ölkəyə qaytarılması istiqamətində işlər davam edir: "İki ölkə Prezidenti arasında bu barədə telefon danışığı olub. Son bir ay ərzində 1000-ə yaxın vətəndaş Azərbaycana qaytarılıb. Proses həm hava, həm də quru yolla həyata keçirilir. "Evegedirem" portalından qeydiyyatdan keçməklə həmin şəxslər geri qaytarılır. Bu prosesdə əsasən yaşlılar, qadın və uşaqlar nəzərə alınır. Amma bəziləri portaldan qeydiyyatdan keçsə də, sərhəd məntəqələrinə üz tutur. Azərbaycanın Rusiyadakı səfirliyi və biz dəfələrlə müraciət etmişik ki, qeydiyyatdan keçən şəxslər cavab gözləsinlər. Onlar geri qaytarılacaq. Sadəcə, səbr nümayiş etdirsinlər, olduqları ölkənin qanunlarına riayət etsinlər".

### Azərbaycanda xəstəliyin yayılması sürəti yüksəkdir

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı isə bildirib ki, Azərbaycanda epidemioloji vəziyyət qənaətbəxş deyil, ölkəmizdə xəstəliyin yayılması sürəti yüksəkdir.

Onun sözlərinə görə, iyunun 18-də 338 nəfərdə COVID-19-a yeni yoluxma faktı aşkar edilib. İndiyədək 139 nəfər dünyasını dəyişib, virusa yoluxmuş 6192 nəfər xəstə sağalıb, hazırda 4998 aktiv xəstə var.

### Xəstələrin sağalma müddəti uzanır - 12-14 gün…

R.Bayramlı qeyd edib ki, artıq ölkədə koronavirus xəstələrinin sağalma vaxtı uzanaraq, 12-14 günədək çəkir. TƏBİB sədri bildirib ki, bununla əlaqədar yeni yoluxanların və sağalanların sayında fərq yaranır, xəstəxanada uzun müddət qalanların sayı çox olur.

O, əlavə edib ki, adətən, xəstəxanaların çarpayı fondunun 15 faizi reanimasiya şöbəsi üçün nəzərdə tutulur: "Xəstələrin böyük əksəriyyətinin oksigenə ehtiyacı yaranır. Bu, COVID-19 xəstəliyi üçün xarakterikdir. 3 ay ərzində bunları nəzərə alaraq, xəstəxanalar üçün oksigen generatorları gətirilib".

R.Bayramlı qeyd edib ki, modul tipli xəstəxanalarla birlikdə 7000-ə yaxın çarpayı fondu var, artıq xəstələrin sayı 5000-ə çatır.

Onun sözlərinə görə, ötən həftə uzunmüddətli məhdudiyyətlərin tətbiqi üçün hazırlıq dövrü oldu: "Son iki həftə ərzində tətbiq olunan qısamüddətli məhdudiyyətlər düşünülmüş şəkildə edilmişdi. Bu, bizə imkan verdi ki, uzunmüddətli məhdudiyyətlərin tətbiqi üçün vaxt qazanaq".

### Koronavirusa yoluxan kifayət qədər ağır xəstə var

R.Bayramlı bildirib ki, ölkədə vəziyyəti ağır olan və intensiv terapiya tələb edən koronavirusa yoluxmuş kifayət qədər xəstə var. Bu, çox narahatedicidir. Onun sözlərinə görə, COVID-19 virusuna yoluxanlar arasında xəstəxanaya gec müraciət edənlər çoxdur.

### Simptomları zəif olan xəstələrlə poliklinika həkimləri məşğul olacaq

TƏBİB sədri bildirib ki, yalnız COVID-19-a yoluxan deyil, yuxarı tənəffüs orqanlarının xəstəliklərindən əziyyət çəkən, amma simptomları zəif olan insanların evdə müşahidə altında saxlanması üçün müvafiq tədbirlər görülüb.

Onun sözlərinə görə, artıq poliklinika həkimləri simptomları zəif olan xəstələrin müalicəsi ilə məşğul olacaq. Bunun üçün beynəlxalq təcrübə əsasında hazırlanan mobil tətbiq əlavəsindən istifadə ediləcək. "E-təbib" adlanan bu mobil tətbiq əlavəsi vasitəsilə evdə müalicə alan xəstələr müşahidə altında saxlanacaqlar: "Onların evi tərk etməməsi üçün müvafiq qurumlar tərəfindən nəzarət tədbirləri həyata keçiriləcək. Burada 14 günlük karantinin olması, belə xəstələrin təlimatlara əməl etməsi vacibdir. Poliklinikada çalışan həkimlər 12 saatdan bir ev telefonu vasitəsilə xəstələrin səhhəti ilə bağlı sorğular göndərəcək və bu məlumat elektron sistemə daxil ediləcək. Bunun əsasında pasiyentin müalicəsini evdə və ya xəstəxanada davam etdirməsi barədə qərar qəbul ediləcək".

### Çarpayıların doluluğu - regionlarda 30, Bakıda 40 faiz…

R.Bayramlı qeyd edib ki, bir sıra xəstəxanalarda əhalinin dializi və s. kimi problemləri üzrə tibbi xidmətlərin göstərilməsi davam etdiriləcək. Vətəndaşlar əmin ola bilər ki, digər xidmətlər üzrə hər hansı axsama müşahidə olunmayacaq. Onun sözlərinə görə, bir sıra xəstəxanaların xüsusi rejimli xəstəxanaya çevrilməsi barədə qərar qəbul edilib: "Təhlillər onu göstərir ki, regionlarda çarpayıların doluluğu 30, Bakıda 40 faiz olub. Ölkəmizin bütün regionlarında rayon xəstəxanaları var. Bu xəstəxanaların hər birinin çarpayı fondu işə salınır".

### Vətəndaşlara deksametazon xəbərdarlığı…

"Məlumat almışıq ki, apteklərdən deksametazon dərmanı ilə maraqlananlar olub. Amma vətəndaşlar bu dərmanı COVID-19-a qarşı profilaktik məqsədlə işlətmək istəsələr, immun sistemlərini sıradan çıxara bilərlər" - deyən TƏBİB sədrinin sözlərinə görə, bu hala qətiyyən yol vermək olmaz: "Azərbaycanda virusla bağlı bütün müalicə protokolları tətbiq edilir. Deksametazon isə yenilik deyil. Bu dərman həmişə iltihab əleyhinə müalicə üçün istifadə edilib".

### Çimərliklərdən istifadəyə məhdudiyyət qoyulur

R.Bayramlı bildirib ki, karantin rejiminin sərtləşdirilməsi ilə bağlı çimərliklərdən istifadəyə məhdudiyyətlər qoyulacaq. Onun sözlərinə görə, əvvəlki məhdudiyyətlərdən fərqli olaraq, SMS sistemi ilə çıxışa icazənin verildiyi müddət ərzində park və bulvar açıq olacaq: "Hazırda bu məsələ üzərində işlənir. Bununla bağlı əlavə məlumat veriləcək".

### Xəstələrin 50 faizini itirmək təhlükəsi ilə üzləşə bilərik...

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi və Tədris Mərkəzinin rəisi, Operativ Qərargahın tibbi eksperti Rəşad Mahmudov isə deyib ki, heç bir dövlət, heç bir millət tərəfindən arzu olunmayan vəziyyətlə qarşı-qarşıyayıq. Onun sözlərinə görə, pandemiyanın bizə diqtə etdiyi vəziyyətlə mübarizə aparmaq məcburiyyətindəyik: "Bu prosesdə günahkar axtarmaq lazım deyil. Lakin cəmiyyətin bir hissəsinin epidemioloji qaydalara əməl etməməsi hökuməti sərt qərarlar verməyə məcbur edir. Yumşalma mərhələsindən sonra yenidən sərtləşdirməyə qərar verməyə məcbur olduq.

Xəstəxanada çarpayıların getdikcə məhdudlaşması, COVID-19-la mübarizədə yeni nəticələr bizi ciddi şəkildə qorxudur. Dövlət başçısının tapşırığı ilə ilkin mübarizə tədbirləri bütün dünya ölkələri üçün nümunə idi. Amma indi yaranmış vəziyyət Azərbaycan dövlətini yenidən sərt addımlar atmağa vadar edir".

R.Mahmudov deyib ki, Azərbaycan əhalisinin bir hissəsinin koronavirusa inanmadığı halda, biz daha ciddi problemlərlə üz-üzə qala bilərik. Onun sözlərinə görə, Azərbaycan vətəndaşları hamılıqla bunu dərk etməli və mübarizə aparmalıdırlar: "Səhiyyə ləvazimatlarını nə qədər artırsaq da, bu, effektli deyil. 50 faiz xəstələri itirmək təhlükəsi ilə üzləşə bilərik. Bu qədər məlumat əlimizdə varkən bu məsələdə həssas olmalıyıq. Bu xəstəliklə birlikdə mübarizə aparmalıyıq. Həkimlərimiz aylardır dayanmadan xəstəliklə mübarizə aparırlar. Bu reallığa görə biz özümüzözümüzü qorumalıyıq".

**"Gələcək üçün bizim nəzərə aldığımız iki əsas məsələ şaxələndirməyə əsaslanan iqtisadiyyatın davamlı inkişafına nail olmaqdır. İkincisi isə, iqtisadiyyatın artımı daha çox iş yerləri ilə müşayiət olunmalıdır".**

# İqtisadi inkişafdakı əsasən iki istiqaməti Azərbaycan Prezidenti Dünya Bankına belə təqdim etdi...



***Əli Əlirzayev:** "İqtisadiyyatın şaxələnməsi sayəsində ölkədə məşğulluq yüksək səviyyədə təmin ediləcək"*

Bunu Prezident İlham Əliyev Dünya Bankının təşəbbüsü ilə bankın Avropa və Mərkəzi Asiya regionu üzrə yeni təyin olunan vitse-prezidenti xanım Anna Byerde, Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus və bankın digər nümayəndələri ilə keçirilən videokonfrans zamanı deyib.

Ölkə başçısının sözlərinə görə, biz qeyri-enerji sektoruna investisiya yatırılmasında maraqlıyıq: "Hökumətin, administrasiyamın və müvafiq nazirliklərin üzvlərindən ibarət xüsusi komissiya yaradıldı. Biz xüsusilə geridə qaldığımız sahələrə diqqət yetirirdik. Biz qısa müddət ərzində çox əsaslı irəliləyişə nail ola bildik. Əlbəttə, bu, ölkədəki biznes mühitini yaxşılaşdırır, daha çox investisiyalardan faydalanmağa imkan verir. Təbii ki, biz qeyri-enerji sektoruna investisiya yatırılmasında maraqlıyıq".

Prezident onu da qeyd edib ki, bizim üçün hazırda indiki pandemiya dövründə iki əsas prioritet var: "Çünki biz ilə yaxşı iqtisadi artım göstəriciləri, yaxşı formada olan bütün iqtisadi parametrlərlə birlikdə çox ümidverici başlanğıc etdik. Lakin bu ilin 5 ayı göstərir ki, bizim iqtisadiyyatımız 1,7 faiz azalıb. Bu, çox deyil. Lakin bu, azalmadır. Amma ümidverici fakt ondan ibarətdir ki, bizdə kənd təsərrüfatında artım qeydə alınıb - 3 faizdən çox. Qeyri-enerji sənayesində artım 14 faiz təşkil edib. Ona görə də gələcək üçün bizim nəzərə aldığımız iki əsas məsələ şaxələndirməyə əsaslanan iqtisadiyyatın davamlı inkişafına nail olmaqdır. İkincisi isə, iqtisadiyyatın artımı daha çox iş yerləri ilə müşayiət olunmalıdır".

Prezidentin sadaladığı istiqamətlər ölkənin sosial-iqisadi inkişafı baxımından çox vacibdir. Maraqlıdır,

*"Bu strategiya elə qurulmalıdır ki, biz ölkə iqtisadiyyatını inkişaf etdirməklə daxili tələbatımızı ödəyə bilək"*

bəs ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayev Prezidentin sadaladığı sahələrin ölkənin gələcək inkişafı üçün vacib əhəmiyyət kəsb etdiyini bildirdi: "Davamlı inkişafı təmin etmək üçün iqtisadi artım lazımdır. İqtisadi artımı da davamlı inkişaf təmin edir. Bütün bunlar bir-birilə bağlı olan məsələlərdir. Bunun əsas iki istiqamətini Prezident deyib. Birincisi, iqtisadiyyatı şaxələndirmək lazımdır. Şaxələndirmə vasitədir, puldur. Biz bu minvalla ölkə iqtisadiyyatının artımını təmin edirik. Yəni bu sahədə sistemli siyasət həyata keçirilməlidir. Elə sahələr var ki, onlar ancaq ölkənin daxili potensialından asılıdır. Ona görə də bir-birilə bağlı olan sahələri inkişaf etdirmək lazımdır. Bu zaman daha çox iş yeri açmaq mümkün olacaq. Kənd təsərrüfatı, emal sənayesi şaxələnməlidir. Biz mümkün olan qədər çalışmalıyıq ki, neftdən asılılıq azalsın. Şaxələnmə strategiyası elə qurulmalıdır ki, biz ölkə iqtisadiyyatını inkişaf etdirməklə daxili tələbatımızı ödəyə bilək.

Ona görə də iqtisadiyyatın şaxələndirilməsi vacib məsələdir. Azərbaycanda iqtisadiyyatın şaxələnməsi üçün rezerv ehtiyatlar, istiqamətlər var. İqtisadiyyatın şaxələnməsi sayəsində ölkədə məşğulluq yüksək səviyyədə təmin ediləcək. Bu olmadan iqtisadi artımı təmin etmək mümkün deyil. İqtisadi artımın strukturu onun şaxələnməsindən və effektivliyindən asılıdır. Ona görə də bütün bunlar bir-birilə sıx əlaqədədir".

***Vidadi ORDAHALLI***

**Azərbaycanda bir qrup jurnalist Azərbaycan Vətəndaş Hərəkatı (AVH) yaradıb. AVH tanınmış imzalar Anar Turan, Vüsal Hətəmov, Mübariz Göyüşlü və Fərman Salmanlı tərəfindən ərsəyə gətirilib. Aktiv fəaliyyətə başlayan AVH təmsilçiləri Azərbaycan Mətbuat Şurasının (MŞ) sədri Əflatun Amaşovla da görüş keçiriblər.**

# Azərbaycan jurnalistlərinin Vətəndaş Hərəkatı nə deməkdir...



***Mübariz Göyüşlü:** "Fəaliyyətlərdə öncəlik Dağlıq Qarabağ məsələsi, Azərbaycan dövləti və dövlətçiliyi ilə bağlı əhəmiyyət daşıyan məqamları, milli-mənəvi dəyərləri, Azərbaycan Prezidentinin siyasətini təbliğ etmək olub"*

AVH hansı məqsədlə yaradılıb, niyə məhz Vətəndaş Hərəkatı adlandırılıb?

Azərbaycan Vətəndaş Hərəkatının İdarə Heyətinin üzvü, icraçı direktoru Mübariz Göyüşlü "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan Vətəndaş Hərəkatının yaradılması ilə bağlı ilk təşəbbüslər 2009 və 2010-cu il tarixlərində olub. "Qurumun fəaliyyəti 2017-ci ildən aktivləşib. Təşkilatlanma prosesi isə 2019-cu ildən daha sistemli xarakter alıb və 14 aprel 2019-cu ildə Hərəkatın Təşəbbüs Qrupu yaradılıb. Təşəbbüs Qrupunun bir neçə aylıq çalışmalarından sonra 11 yanvar 2020-ci ildə Hərəkat iki qeyri-hökumət təşkilatı və bir nəfər alim tərəfindən təsis edilib. Təsisdən sonra Məclisinin ilk toplantısını keçirib, İdarə Heyəti üzvlərini (Hacı Həsənov, Azər Həsənsoy, Mübariz Göyüşlü, Anar Turan, Vüsal Hətəmov, Aydın Allahverdiyev, Anar Nəsibov) seçib. İdarə Heyətinin ilk iclasında icraçı direktor (Mübariz Göyüşlü) seçilib.

Vətənpərvər ziyalılar tərəfindən Hərəkatın yaradılmasında məqsəd Azərbaycan vətəndaşlarının ictimai tərəqqiyə, dövlətçiliyin möhkəmlənməsinə, qanunun aliliyinin təmin edilməsinə yönəlmiş fəallığını dəstəkləmək, onu daha da artırmaq, Azərbaycan dövlətinin siyasətini təbliğ etmək, milli-mənəvi və ümumbəşəri dəyərləri qorumaq, həmçinin, vətəndaş cəmiyyətinin inkişafına nail olmaqdır. Məqsədə nail olmaq üçün Hərəkat ümummilli məsələlərlə bağlı müxtəlif sorğular, müşahidələr və təhlillər aparmağı, mütəxəssislərin rəy və təkliflərini toplamağı, müvafiq məlumat bazası yaratmağı, Hərəkatın məqsəd və prinsiplərini dəstəkləyən fərd, qrup və təşkilatlarla ortaq mövqedən çıxış edərək birgə layihələr həyata keçirməyi, elmi-praktik konfranslar, simpoziumlar, forumlar, "dəyirmi masa"lar təşkil etməyi, təkliflər hazırlayaraq aidiyyəti qurumlara təqdim etmək vəzifəsini öhdəsinə götürüb".

M.Göyüşlü, həmçinin, vurğuladı ki, Təşəbbüs Qrupu formatında və təsisdən sonra Hərəkat üzvləri Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoralla, AMEA Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudovla, Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, professor Şahlar Əsgərovla, Azərbaycan-Türkiyə İşadamları Birliyinin sədri Cemal Yangınla, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşovla qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə etmək üçün görüşlər keçiriblər. "Hərəkat bir sıra tədbirlər, aksiyalar keçirmiş, Azərbaycan üçün əhəmiyyət daşıyan məsələlərdə bəyanatlar qəbul edib. Fəaliyyətlərdə öncəlik Dağlıq Qarabağ məsələsi, Azərbaycan dövləti və dövlətçiliyi ilə bağlı əhəmiyyət daşıyan məqamları, milli-mənəvi dəyərləri, Azərbaycan Prezidentinin siyasətini təbliğ etmək olub. Hərəkatın Dərbənd şəhərinə ötən il baş tutan səfəri, orada Azərbaycan-Dağıstan Dostluq Cəmiyyətinin üzvlərilə keçirdiyi görüşlər, Bakıda Dərbənd Cəmiyyəti ilə imzaladığı əməkdaşlıq müqaviləsi çox mühüm əhəmiyyətə malikdir. Bundan başqa, Keşikçidağ Dövlət Tarixi Memarlıq Qoruğuna edilən səfər də dövlətçilik məsələsi baxımından çox mühüm əhəmiyyətə malikdir. Hərəkatın 9 fevral 2020-ci il tarixdə Milli Məclisə keçirilmiş növbədənkənar seçkilərlə bağlı, 4 mart 2020-ci il tarixdə Suriyadakı son durum, Türkiyənin keçirdiyi "Bahar qalxanı" əməliyyatına dəstək olaraq, eyni zamanda, 18 iyun 2020-ci il tarixdə Rusiya Federasiyasının Azərbaycan Respublikası ilə sərhədində baş vermiş insidentlə əlaqədar verdiyi bəyanatlar, etdiyi müraciətlər yerli və beynəlxalq ictimaiyyət tərəfindən diqqətlə qarşılanıb.

*"...Hərəkat yenə də aktiv çalışmalarla fəaliyyətini sürdürməkdədir"*

Hərəkatın sıraları ötən hər həftə, hər ay genişlənməkdədir. Bunu Hərəkatın Məclisinin 30 may 2020-ci il tarixdəki sonuncu toplantısından da görmək mümkündür. Əsasən ziyalıların maraq və diqqət göstərdiyi Azərbaycan Vətəndaş Hərəkatı təşkilatlanma işlərini davam etdirir. Təəssüf ki, növbədənkənar parlament seçkiləri və koronavirus infeksiyası ilə bağlı məsələlər daha həssaslıq tələb etdiyinə, ictimaiyyəti daha çox məşğul etdiyinə görə nəzərdə tutulan və planlaşdırılan bəzi işləri ertələməyə məcbur olduq. Amma artıq 2 aydır Hərəkat yenə də aktiv çalışmalarla fəaliyyətini sürdürməkdədir. Hazırda qarşıda 24 iyun tarixində "Ordumuz qürurumuzdur" adlı onlayn videokonfransa hazırlaşırıq. Bundan sonra da fəaliyyət və çalışmalarımızı genişləndirmək niyyətindəyik" - deyə M.Göyüşlü bildirdi.

***İradə SARIYEVA***

**Erməni mediası yazır ki, Ermənistanda Paşinyanı dəstəkləyən kütləvi informasiya vasitələrinə Rusiya və İran əleyhinə materiallar dərc etmək tapşırılıb. Guya yeganə çıxış yolu ABŞ-la yaxınlaşmaqdır.**

*"Guya bütün bunları nəzərə alan ABŞ Ermənistana siyasi və iqtisadi yardımları artıracaq"*

# Paşinyançı media üçün "ev tapşırığı" - Ermənistanın bəlalarının kökü Rusiya və İrandır

## ***Ramil Hüseynov:*** *"İrana qarşı tənqidlər sırf Qərbin xoşuna gəlmək məqsədi daşıyır"*



Bununla bağlı ölkə mətbuatı bəzi məqamlara toxunub: "Görünən budur ki, Ermənistan hakimiyyəti Birləşmiş Ştatlardan konkret tapşırıqlar alır. Onların əsas istəyi İrəvanın Moskva, Tehran və Pekinlə münasibətlərini korlamaqdır".

Ermənistanın keçmiş təhsil və elm naziri Armen Aşotyan bildirib ki, hökumətyönlü təbliğatçılar və Nikolun mətbuatı Ermənistandakı daxili siyasi vəziyyətdən yararlanaraq anti-Rusiya hisslərinin yayılmasına yeni təkan verib: "KİV yazır ki, Ermənistanın bütün bəlalarında Rusiya, yəni Putin günahkardır. Ancaq Nikol nahaq yerə özünü aldadır. Tramp heç vaxt onu qəbul etməz. Bu gün Ermənistanın təhlükəsizliyi təhlükə altındadır".

Həqiqətən də son dövrlər erməni mətbuatında anti-Rusiya ritorikası artıb. Bəzən Rusiya Prezidenti Vladimir Putinə qarşı çox sərt yazılar yazılır. Son vaxtlar erməni mediasında İrana qarşı da tənqidlər yayılmaqdadır. Hansı ki, erməni mətbuatında nadir hallarda İran tənqid edilirdi. Bütövlükdə, Paşinyan hakimiyyətinin apardığı bu siyasət Ermənistanı hara aparır?

Məsələyə münasibət bildirən siyasi ekspert Ramil Hüseynovun sözlərinə görə, Paşinyan onu gözləyən fəlakətdən qorunmaq üçün bu cür addımlar atır: "Yəni Qərbin dəstəyini təmin etməkdən ötrü bu qədər canfəşanlıq göstərilir. Zatən, Paşinyana yaxın olan media orqanları silsilə şəklində Rusiyanı tənqid edirlər. Prinsip etibarilə bu yeni deyil. Hətta bir sıra hallarda tənqidin dozası daha da artırılır. Bununla Paşinyan özünü Qərbə göstərir ki, ona daha çox yardım etsinlər. Ancaq ötən iki ildə Qərb gərəkən dəstəyi Ermənistana göstərməyib. Xüsusən də maliyyə yardımı ilə bağlı gözləntilər reallaşmayıb. Hansı ki, bu, Ermənistanın ən yaralı yeridir. Son günlər Rusiyaya qarşı aparılan təbliğat kampaniyası həm də ölkədəki gərgin siyasi proseslərlə bağlıdır.

Paşinyan hesab edir ki, baş verənlərin arxasında Rusiya dayanır. Bu üzdən, Prezident Putin əsas tənqid hədəfidir. İrana qarşı tənqidlər isə sırf Qərbin xoşuna gəlmək məqsədi daşıyır. Eyni vaxtda İsraildə səfirliyin açılması məsələsinin gündəmə gəlməsi buna xidmət edir. Guya bütün bunları nəzərə alan ABŞ Ermənistana siyasi və iqtisadi yardımları artıracaq. Ancaq Paşinyan yanılır. Belə siyasət onu uçuruma aparır. Çünki Ermənistan elə bir geosiyasi məkanda yerləşir ki, bu cür siyasət çox pis nəticələrə gətirib çıxara bilər".

***Vidadi ORDAHALLI***

---

**Ermənistanda baş verənlərə Rusiya mediası da geniş yer ayırmaqdadır. "Nezavisimaya qazeta" yazır ki, Ermənistan bir tərəfdən koronavirus pandemiyasının, digər tərəfdən də Baş nazir Nikol Paşinyanın rəqiblərinə qarşı həyata keçirdiyi zorakılıqların əlində qalıb. Etiraz aksiyaları zamanı 100-dən çox şəxs həbs edilib.**



# Erməni mediası ölkədəki proseslərin əsl mahiyyətini dəqiq ifadə edir - özəl sektorun məhvi, kapital yığımı, mülkiyyətin yeni bölgüsü...

## ***Elşən Manafov:*** *"İki klan arasında mülkiyyət və kapitalın yenidən bölüşdürülməsi uğrunda kəskin mübarizə gedir"*

Baş verənləri qəzetə şərh edən politoloq Andranik Tevanyan ölkədəki mövcud siyasi vəziyyətin miqyaslı şəkildə mülkiyyətin və kapitalın bölgüsü ilə əlaqəli olduğunu bildirib: "2018-ci ildə oliqarx rejimini devirən qüvvə hakimiyyətə gəldi. Onların problemi varlanmaq idi və buna da iri kapital mane olurdu. Əgər Baş nazir Nikol Paşinyan onların öhdəsindən gələ bilərsə, növbədə kiçik və orta biznes olacaq. Yoxsullar daha da pis yaşamağa başlayacaqlar və yalnız Paşinyanın populist çıxışları ilə yemlənəcəklər. Paşinyan dövlət pulu ilə komanda yoldaşlarını satın alır, mükafatlar paylayır, Çarukyana hücum isə özəl sektorun ələ keçirilməsidir. Hakimiyyət iddia edir ki, Ermənistanda mülkiyyət, xüsusən də iri kapital qanunsuz yolla əldə edilib. Korrupsiyaya qarşı mübarizə adı altında mülkiyyətin yenidən bölgüsü aparılır. Kapital əldə etmək üçün Baş nazir ictimai təlatümlərə gedir. Bütün bunlar isə ərazilərin, hətta dövlətçiliyin məhvinə gətirib çıxara bilər".

Göründüyü kimi, məsələnin kökündə kapitalın və az-çox gəlirli olan bütün sahələrin ələ keçirilməsi dayanır. Paşinyan, bu minvalla, öz hakimiyyətini möhkəmləndirmək istəyir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Elşən Manafov hesab edir ki, ölkədə proseslərin gərginləşməsi əsasən kapital bölgüsü ilə bağlıdır: "Ermənistanda siyasi böhran yaşanır. Sözügedən böhran hakim klanla müxalif klan arasında münasibətlərə öz təsirini göstərir. Paşinyanın hakimiyyətə gələn zaman verdiyi vədlər özünü doğrultmadı. Vəd verirdi ki, ölkəni qısa zamanda iqtisadi və sosial böhrandan çıxaracaq. Korrupsiyaya qarşı mübarizə özünü doğrultmayıb. Bu günlərdə onun Kanadada dəyəri 3 milyon dollar olan mülk alması ortaya çıxdı. Bu, ictimaiyyətdə böyük rezonansa səbəb oldu. Bu, onu göstərir ki, Paşinyan hakimiyyətə gələndən sonra, sadəcə olaraq, hakimiyyətin verdiyi imkanlardan istifadə edərək erməni xalqının deyil, özünün, ətrafının, yaxınlarının mövcud problemlərinin həlli ilə bağlı daha çox düşünür. Bu istiqamətdə də addımlar atır. Başqa bir tərəfdən, Paşinyan onun hakimiyyətə gəlməsində maraqlı olan, buna görə maliyyə dəstəyi verən qüvvələrin də müəyyən mənada etimadını doğrultmalı idi. Bu mənada onun Rusiya ilə bağlı güc nazirlərinin 3-nün birdən istefasını qəbul etməsi, separatçı qurumda öz adamını hakimiyyətə gətirməsi onu göstərir ki, Paşinyanın təmsil olunduğu klanla "Qarabağ klanı" arasında Ermənistanda mülkiyyət və kapitalın yenidən bölüşdürülməsi uğrunda kəskin mübarizə gedir. Sözügedən mübarizə, faktiki olaraq, özünün daha kəskin və fərqli mərhələsinə daxil olur. Hesab edirəm ki, bu mübarizənin kəskinləşəcəyi təqdirdə Paşinyanın istefası istisna deyil. Təsadüfi deyil ki, onun istefası ilə bağlı parlamentdə fikirlər səsləndirilir. Çarukyanla bağlı gedən proseslər göstərir ki, Paşinyan ona qarşı olan qüvvələri maksimum tez neytrallaşdırmaq istəyir. Ancaq proseslərin gedişi göstərir ki, qarşıdakı dönəm Paşinyan üçün çox çətin olacaq".

*"...Paşinyanın istefaya gedəcəyi istisna deyil"*

***Vidadi ORDAHALLI***

**Ermənistanda inqilab yolu ilə hakimiyyətə gələn Nikol Paşinyanın amerikalı iş adamı Corc Sorosun təsis etdiyi Soros Açıq Cəmiyyəti (Soros Fondu) tərəfindən dəstəkləndiyi çoxdan deyilir. Bunu nəinki Ermənistanın daxilindəki siyasi qüvvələr, hətta beynəlxalq analitiklər də zaman-zaman şərh ediblər.**



# Ermənistanda bütün anti-Soros fəallar Paşinyanın hədəfində - ölkədə anti-Rusiya ovqatının yeni təzahürü...

***Yeganə Hacıyeva:** "Rusiyaya meylli olmaq elə anti-Soros olmaq deməkdir"*

Ona görə də Paşinyanın 2018-ci ildəki küçə yürüşləri, qanunsuz mitinqləri və kütləvi aksiyalarının arxasında əslində hansı qüvvələrin dayandığı hər kəsə bəllidir. Bu qüvvələr nəhayət küçədən gələn Paşinyanın baş nazir olmasına da nail oldular. Bundan sonra Ermənistan daxili siyasətində parçalanmalar baş verdi. Hakimiyyət, faktiki olaraq, Qarabağ klanı və anti-Sorosçu müxalifətçilər arasında var-gəl etməkdədir. Baxmayaraq, Paşinyan özü süni davranışları ilə vəziyyətin belə olmadığını, əksinə, hər şeyin onun ürəyincə olduğunu göstərməyə çalışır. Onu Sorosun əlaltısı olmaqda ittiham edənləri isə ən sərt şəkildə cəzalandırır. Son həbslərin də anti-Soros cameəsində baş verdiyini iddia edənlər az deyil. Belə qənaətə gəlinir ki, Paşinyan əsasən Rusiyaya meylli olan, anti-Soros ovqatlı siyasiləri sıradan çıxarır. Ermənistandakı bu təzahürləri necə dəyərləndirmək olar?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanda baş verən hadisələrə sırf Soros kontekstindən yanaşmaq olmaz:"Siyasi səhnədən diktator üsullarla uzaqlaşdırılan "Çiçəklənən Ermənistan" fraksiyasının sədri hakimiyyətinin ilkin dönəmlərində Paşinyanın özünə də sərf edirdi. Çünki onun üzərindən Rusiya ilə oynaya bilirdi. Köçəryan və Serj Sarkisyan kimi Rusiyaya meylli olan dərin əlaqələrə malik siyasətçilərin rolunu o, biznesmen Qaqik Tsarukyana verməklə siyasi balansı təmin etmək istəyirdi. Ancaq sonra gördü ki, Qaqik onu parlamentdə açıq şəkildə söyür, lağa qoyur. Paşinyanın bu həddə gəlib çıxmasının özü də təəccüb doğurur. Hiss olunur ki, o, ölkəyə nəzarət edə bilmir. Yalnız Qarabağ kartı ilə manipulyasiya etməklə özünü daxili auditoriya qarşısında qoruya bilir. Fikir verin, hər dəfə vəziyyət pisləşəndə o, Qarabağa səfər edir. Bir az xal yığıb, geri dönür. Qaqikin həbsi elə bir ciddi təlatümə səbəb olmayacaq. Çünki onun cəmiyyətdə dərin nüfuzu yoxdur. Yekun rəy budur ki, Paşinyanın repressiya apardığı şəxslər Rusiyaya meylli adamlardır. Burada sırf Soros faktoru rol oynamır. Ümumi anlamda bu düstür alınır. Çünki Rusiyaya meylli olmaq elə anti-Soros olmaq deməkdir. Amma Ermənistanda Sorosla bağlı maraqlı proseslər yaşanır. "Sorosun uşaqları" deyilən zümrə heç vaxt hakimiyyətdə bu qədər təmsil olunmayıb. "Vahid Ermənistan" partiyasının sədri Xaçik Asryan bildirib ki, milli suveren dövlətləri məhv edən Amerika və avantürist Soros Ermənistanda öz geniş şəbəkəsini qurub, faktiki olaraq Ermənistan hakimiyyətini ələ keçirib.

**Bu faktdır. Amma gəlin görək, həmin şəbəkənin özü hazırda Paşinyanı qəbul edirmi? İndi onlar yavaş-yavaş Paşinyanın arxasından çəkilir və prosesi özləri yönəltmək istəyirlər. Faktiki olaraq, Paşinyan onlar tərəfindən də küncə sıxılmış vəziyyətdədir".**

***Məhəmmədəli QƏRİBLİ***

**"Çiçəklənən Ermənistan" partiyasının sədri, "Tsarukyan" deputat fraksiyasının lideri, milyonçu Qaqik Tsarukyanın deputat toxunulmazlığının iyunun 16-da Ermənistan parlamenti tərəfindən ləğv edilməsi həmin ölkədəki siyasi prosesləri daha da qızışdırıb.**



# Ermənistanda 2018-ci ildən başlayan proses - Paşinyanın demokrat obrazı sürətlə dağılır, diktator imici güclənir...

***Samir Adıgözəlli:** "Nikol Paşinyan bugünlərdə öz əməlləri və çıxışları ilə özünün əsl üzünü xalqa göstərməkdədir"*

Onun tərəfdarları bildirir ki, seçki cinayətində, seçiciləri pulla ələ almaqda günahlandırılan Q. Tsarukyan sırf siyasi motivlərlə ölkənin təhlükəsizlik qüvvələri tərəfindən istintaqa cəlb edilib. Q. Tsarukyanın məhz N.Paşinyan hakimiyyətini tənqid etməsindən sonra təzyiqlərə məruz qalması baş verənlərin siyasi təqib olduğunu göstərir. İstər son vaxtlar Ermənistanda baş verən repressiyalar, istərsə də Q. Tsarukyanla bağlı hadisələr fonunda Paşinyanın 2018-ci ildən bəri formalaşan "demokrat" imici sürətlə dağılır və onun yerində diktator obrazı formalaşır. Faktiki olaraq şahidi oluruq ki, Paşinyan özünün keçmiş və gələcək siyasi rəqiblərini həbs etdirir, söz və mətbuat azadlığını məhdudlaşdırır. Bütün bunları aqressiv şəkildə həyata keçirərkən isə demokratiya pərdəsi arxasında gizlənir, korrupsiyaya qarşı mübarizə apardığını iddia edir. Son hadisələrdən sonra Ermənistanda N.Paşinyanı diktator hesab edənlərin sayı durmadan artır. Hazırda Ermənistanda təkcə pandemiya böhranı deyil, həm də siyasi böhran yaşanır. Ölkədə siyasi repressiyalar güclənib. N.Paşinyanın yeganə məqsədi hakimiyyətinin müddətini uzatmaqdır.

Paşinyanın diktor kimi tanınmağına səbəb olan hadisələr nədən ibarətdir?

İctimai Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) sədri Samir Adıgözəlli "Bakı-Xəbər"ə bildirdi ki, Ermənistanda hakimiyyət dəyişikliyinə gətirən 8 may məxməri inqilabından sonra ölkə iqtisadiyyatında tənəzzül nəinki dayanmayıb, hətta əksinə, daha da dərinləşməkdədir:"Bunu təkcə biz demirik. Yerli müstəqil iqtisadçı ekspertlər də söyləyir və həyəcan təbili çalırlar. Əsas səbəb də işğalçı ölkədə inqilab sonrası davam edən daxili qeyri-müəyyən vəziyyətdir. Bununla belə, inqilabçı baş nazir Nikol Paşinyan iqtisadi xarakterli populist açıqlamalar və vədlər verməkdə davam edir. Guya ki, Ermənistanda artıq iqtisadi yüksəliş başlayıb. Özünü "demokrat" adlandıran və demokratiya yolu ilə hakimiyyətə gəldiyini, hakimiyyətin mənbəyinin xalq olduğunu hər yerdə bəyan edən Ermənistan baş naziri Nikol Paşinyan bugünlərdə öz əməlləri və çıxışları ilə özünün əsl üzünü xalqa göstərməkdədir. "Məxməri" inqilab zamanı Paşinyan hər şeyin xalqın istədiyi kimi olacağını və bütün proseslərin demokratiya çərçivəsində gedəcəyini bəyan etməsinə baxmayaraq, özü verdiyi vədləri yerinə yetirməməklə kifayətlənməyib xalqın səsini boğmağa çalışır. Ölkə daxilində heç bir sahədə islahatlar apara bilməyən və xalqın diqqətini başqa yönə istiqamətləndirmək, keçmiş rejim üzərindən ölkədaxili gündəmi müəyyən etməyə çalışan Paşinyan bugünlərdə nəinki köhnə rejimin diktator əməllərindən fərqlənməyəcək, hətta irəli gedəcək addımlar atır.

Paşinyan hakimiyyətə gəldikdən sonra 2008-ci il 1 mart hadisələri ilə bağlı cinayət işinin açılması, bunun timsalında Robert Köçəryan barəsində həbs qərarının verilməsi onun ölkəni demokrat kimi deyil, əsl diktator kimi idarə edəcəyinə şübhə yeri qoymadı. Paşinyan hakimiyyətə gələn zaman yeni seçilən parlamenti də qanunsuz vasitələrlə özünü buraxmağa vadar etdi. Sonra onun sözünü eşitməyəm məhkəmə hakimlərinə qarşı eyni pressinqi tətbiq etdi. Artıq vəziyyət o həddə çatıb ki, ona müxalif olan partiya sədrlərini belə diktator metodlarından istifadə etməklə siyasi səhnədən kənarlaşdırır. Təbiidir ki, bütün bu addımlar Paşinyanı diktator kimi qəbul etməyə əsas verir".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (KİVDF) tərəfindən qəzet redaksiyalarına maliyyə yardımının göstərilməsi üçün müsabiqə elan olunub. Çap mediasına maliyyə yardımı göstərilməsi ilə bağlı müsabiqənin şərtlərində bəzi dəyişikliklər edilib.**

# Azərbaycan çap mediasının yeni maliyyələşmə mərhələsi başladı - pozitiv gücə malik yeniliklər var, baş redaktorların proqnozları...







***Elçin Mirzəbəyli:*** *"Yeni qaydalara olduqca müsbət yanaşıram və bu prosesin davam etməsini gözləyirəm"*

***Bəhruz Quliyev:*** *"Fondun bu yeni qaydaları çap mediasına bir stimuldur"*

***Şakir Ağayev:*** *"Qaydalara edilən yeni dəyişikliklər məni tam qane edir"*

KİVDF-nin elan etdiyi müsabiqənin yeni şərtləri bu istiqamətdə yeni mərhələnin başlanmasının təzahürüdür.

KİVDF-dən maliyyə yardımı alan qəzetlərin baş redaktorları ilə əlaqə saxlayıb, yeni şərtlərlə bağlı onların dəyərləndirmələrini öyrəndik.

"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli "Bakı-Xəbər"ə bildirdi ki, KİVDF-nin çap mediasına maliyyə yardımının ayrılması ilə bağlı müəyyən etdiyi yeni qaydaları müsbət qiymətləndirir. "Düşünürəm ki, yeni qaydalar qəzetçiliklə məşğul olmağı qarşısına hədəf qoyan və yaradıcılığı yüksək qiymətləndirən bütün insanların maraqlarına uyğundur və reallığı tamamilə əks etdirir. Bu həm də kateqoriya anlayışının sıradan çıxarılmasında özünü nümayiş etdirir. Çünki cəmiyyətdə insanlar arasında kateqoriya anlayışı olmadığı kimi, kütləvi informasiya vasitələri arasında da kateqoriya anlayışı olmamalıdır. Bizim ölkəmizdə bütün vətəndaşlar və KİV birinci dərəcəli vətəndaşlar və KİV-dir.

Başqa bir mühüm faktor ondan ibarətdir ki, tirajla bağlı real bir rəqəm müəyyənləşdirilib və bu, çap mediasını gündəlik xərclərinin bir hissəsindən azad edəcək, imkan verəcək ki, həmin resurslar qəzetin müəyyən səhifələrinin rəngli çıxmasına şərait yaratsın. Bu da Azərbaycan mətbuatının əhəmiyyətli hissəsini ağ-qara görüntüdən nəhayət ki xilas edəcək və təbii, poliqrafiya prosesinin özünü də stimullaşdıracaq. Çünki bunlar bir-birilə asılı olan məqamlardır. Qəzetçilik inkişaf etdikcə, poliqrafiya da onunla parelel olaraq inkişaf edəcək. Təbii ki, bu artıq yeni dizayn formalarının ortaya çıxmasına zəmin yaradacaq. Bu aspektdən də bunu olduqca əhəmiyyətli bir qərar kimi qiymətləndirirəm.

Növbəti önəmli bir məqam isə müsabiqəyə tələb olunan sənədlər veriləndə istiqamətlər üzrə qəzet redaksiyasında müxbirlər tərəfindən hazırlanmış müvafiq yazıların verilməsidir. Bu, əslində, yaradıcı prosesin özünü stimullaşdıran bir amildir. Yəni, faktiki olaraq, prosesi formalizmdən çıxaracaq və real yaradıcı məcraya gətirib çıxaracaq. Qənaətimə görə, bu aspektdən, sadəcə olaraq, qaydaların texniki prosesində istifadə olunan bir mexanizm deyil, bu, bütövlükdə, dövlət sifarişi əsasında konkret həyata keçirilən ayrı-ayrı istiqamətlər üzrə layihələrin real mahiyyət almasına xidmət edən bir addımdır. Bu da qəzetlərdə keyfiyyət göstəricilərinin yüksəlməsinə imkan yaradacaq. Düşünürəm ki, bu prosesdə artıq təkcə qəzet rəhbərliyinin deyil, eyni zamanda, jurnalistlərin də önəmi önə çəkiləcək. Yəni indiki şəraitdə layihənin qalib gəlməsi həm də o qəzetdə yazıları yazan jurnalistlərdən asılıdır. Bu çox önəmli bir faktordur. Çünki baş redaktorlar, əlbəttə ki, qəzetin idarə olunması məsələsində önəmli rola malik olsalar da, amma qəzet, ümumiyyətlə, media deyəndə ilk ağla gələn məhz jurnalist olur və biz hamımız, o cümlədən də baş redaktorlar jurnalistin də, bu peşənin də keyfiyyət göstəricilərinin yüksəlməsi üçün birinci növbədə məsuliyyət daşıyırıq. Bunu da yüksək dəyərləndirirəm. Eyni zamanda, gündəlik çıxmaq niyyətində olan qəzetlərə üç, günaşırı çıxanlara isə iki istiqamət üzrə yazılar hazırlanmasına imkan verilməsi müsbət amildir".

O qeyd etdi ki, bu iki istiqamət qəzetin layihə ilə bağlı iki fərqli istiqamətlərə köklənməsinə imkan yaradacaq və iki fəqrli istiqamətdə peşəkarlığın artmasına, araşdırmaların aparılmasına şərait yaradacaq, bu da kifayət qədər müsbət amildir.

E.Mirzəbəylinin sözlərinə görə, digər eyni yazıların təkrar-təkrar eyni istiqamətlər üzrə getməsi bir durğunluq yaradırdı, müəyyən bir zaman kəsiyindən sonra keyfiyyət göstəriciləri aşağı düşürdü. "Təəssüflər olsun ki, bəzən də xalturaya çevrilirdi. Amma indiki şəraitdə manevr etmək üçün daha geniş imkanlar var. Bütövlükdə, yeni qaydalara olduqca müsbət yanaşıram və bu prosesin davam etməsini gözləyirəm. Ümid edirəm ki, həyata keçirilən bu islahatlar nəticəsində Azərbaycanın çap mətbuatı arzu etdiyimiz simasını, görkəmini alacaq" - deyə E.Mirzəbəyli qeyd etdi.

"Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyevin fikrincə, KİVDF yeni bir mərhələyə qədəm qoyub: "Deyərdim ki, Azərbaycanda gedən islahat siyasəti nəticəsində strukturlarda yenilik, kreativ baxış, müasir düşüncənin ortaya qoyduğu potensial, eyni zamanda, idarəçilikdə sadələşdirilmiş çevik mexanizmin tətbiq olunması müşahidə edilir. Bütün sahələrdə gedən dəyişikliklər, islahatlar KİVDF-yə də sirayət edir. Fondun yeni rəhbərliyinin təhlili və tövsiyəsi ilə hazırlanmış yeni qaydalar həm qəzetlərə maliyyə dəstəyinin göstərilməsi ilə bağlı müsabiqənin şərtlərinin əvvəlki qaydalardan fərqli olaraq sadələşdirilməsi, eyni zamanda fərdi jurnalist yazılarının da qiymətləndirilməsi, mükafatlandırılması istiqamətindəki yeniliklər irəliyə doğru atılmış addım kimi dəyərləndirilə bilər. Nə üçün? Dəyişikliklər nəyin üzərində oldu? Bu detallara vardıqda, bir məqamı deyim. Əvvəllər gündəlik, günaşırı və həftəlik qəzetlər arasında tiraj məsələsi vardı. Yəni 2500-3000 tirajı, abunəsi və 2000-2500 satışı olan qəzetlər 20 min manata iddialı idisə, indi bu sadələşdirildi. Yaxud əvvəllər bir qəzet azı üç il nəşr olunmalı idi ki, maliyyə yardımı almaq üçün müsabiqəyə sənəd versin. İndi artıq bunların hamısı sadələşdirilib. Qəzet nüsxələrinin sayı 2000-nə, 1500-ə endirildi. İndi üç il deyil, bir il ərzində müntəzəm nəşr olunan və 2000 birdəfəlik tirajı, 1500 abunə və satışı olan qəzetlər müsabiqədə iştirak edə bilərlər. Hesab edirəm ki, Fondun bu yeni qaydaları çap mediasına bir stimuldur. Qiymətləndirmə məsələsində də, yazının məzmunu, mövzunu əhatə edən müvafiq sahələrə uyğun da yeni meyarlar müəyyənləşib. Yəni müsabiqəyə təqdim edilən yazılar nəyə əsasən qiymətləndiriləcək? Bunların hər birində yeniliklər, dəyişikliklər, islahatlar özünü göstərir və bu yalnız pozitiv istiqamətdə görülən işləri şərtləndirir. Belə düşünürəm ki, Fondun indiki yanaşması müasir dövrün tələbləri ilə uyğunlaşır. Bu, gələcəkdə başqa yeni qaydaların tətbiq olunması, yeni ideyaların ortaya çıxması üçün çap və elektron mediaya yardımın daha modern formasını tapmaq üçün atılan birinci addımdır. Bilirsiniz ki, videokonfrans keçirildi və mən də Fondun Müşahidə Şurasının üzvüyəm. Videoiclasda da Fondun icraçı direktoru qeyd etdi ki, bu, növbəti addımlar üçün startdır, daha modern üsullar, daha müsbət yeniliklər KİVDF vasitəsilə həyata keçiriləcək. Bunların hər biri də yazılı mətbuatın daha çevik və dinamik inkişafına, yaşamasına doğru atılmış addımlardır. Eyni zamanda, elektron mətbuatın da gələcəkdə hər hansı bir formadasa maliyyələşməsinə bir işarədir. Hesab edirəm ki, əsas odur istək var, yenilikləri həyata keçirmək üçün həm hüquqi, həm də kreativ baza, potensial var. Bu yeniliklərin üzərində təhlillər apararaq, onun üzərində qərarlar vermək lazımdır. Bu yeniliklər yalnız mətbuatın yenilənməsinə, inkişafına, mətbuatın gələcəkdə daha geniş miqyasda oxucu auditoriyası əhatə etməsinə xidmət edir. Bu, rəqabət aparması üçün çap mediasına verilmiş yeni meydandır. Düşünürəm ki, hər bir qəzet öz ətrafında geniş oxucu auditoriyası toplayıbsa və o sevilərək oxunursa, yenə də oxucular o qəzetə abunə olacaqlar, alacaqlar. Qəzet daha da inkişaf edəcək. Qoyulan yeni şərtlər və tələblər, yeni qaydalar isə hər bir yazılı mətbuat üçün yeni bir mərhələnin başlanğıcıdır" - deyə B.Quliyev qeyd etdi.

"Novoe vremya" qəzetinin baş redaktoru Şakir Ağayevin sözlərinə görə, yeni qaydalar müsbət dəyişikliklərə səbəb olacaq. "İki gün əvvəl Fond qəzetlərin maliyyə yardımı alması üçün yeni layihələrin təqdim edilməsi üçün vaxtı müəyyən edib. Eyni zamanda da bu istiqamətdə yeni şərtləri elan etdi. Təbii ki, bu gözlənilən idi. Hesab edirəm ki, bundan sonra başqa dəyişikliklər də olacaq. Qaydalara edilən yeni dəyişikliklər məni tam qane edir və qəzetlər artıq 1-ci, 2-ci kateqoriyaya bölünmür. Fondun qoyduğu şərtlərə hansı qəzetlər uyğun gələcəksə, həmin qəzetlər 20 min manat alacaq. Şərt qoyulub ki, 20 min manat yardım almaq istəyən qəzet müsabiqəyə üç, 10 min almaq istəyənlər iki, 5 min manat almaq istəyənlər isə 1 yazı verməlidirlər. Bu ondan irəli gəlir ki, 20 min manat almağa iddia edənlər gündəlik çıxmalıdırlar. Biz "Novoe vremya" qəzeti olaraq 20 ildir gündəlik çıxmışıq. Baxmayaraq ki, keçən dövrdə qəzetlər kateqoriyaya bölünərkən bizim qəzeti ikinci kateqoriyaya salmışdılar. Amma buna baxmayaraq, biz gündəlik nəşrimizi davam etdiririk, davam etdirəcəyik də. Ona görə də Fondun yeni müsabiqəsində gündəlik qəzet kimi iştirak etməyə iddialıyıq. Şərtlər tam kreativ, məqbul və məni təmin edən şərtlərdir. Sənəd növləri bir az azalıb, fikrimcə, getdikcə yenə də azalacaq. Eyni zamanda, qəzetin imkanları nəzərə alınıb. Tirajların azalmasına gəlincə, bu da məqbul şərtdir. Real Azərbaycan oxucusunun tələbinə, satış bazarına uyğun tiraj müəyyən edilib - 2000 tiraj, 1500 abunə. Bu, qəzetlərə xeyli kömək edəcək. Qəzetlərə ayrılan pullar əlavə tirajlara verilib əlavə xərc yaratmasın. Yeni rəhbərliyin qoyduğu tiraj sayı qəbuledilləndir, Azərbaycan bazarına uyğundur. Çünki əlavə tirajlara verilən pullar qəzetlərin əlavə xərclərinə yönəldilə bilər. Bununla qəzetin əlavə texniki imkanlarını genişləndirmək olar. Ona görə də çox təqdirəlayiqdir".

Ş.Ağayev qeyd etdi ki, yeniliklərdən biri də qəzetlərə sərbəst mövzu seçiminin verilməsi ilə bağlıdır, bu da təqdirəlayiq haldır. "Hansı mövzunu seçmək istəyirsə, qəzet rəhbərliyi layihə ilə əlaqədar jurnalistlərlə məsləhətləşir və jurnalistlərin rəyi nəzərə alınmaqla mövzular seçilir və müsabiqəyə təqdim edilir. Hesab edirəm ki, bu yeni dəyişikliklər getdikcə daha yaxşı nəticələr verəcək və qəzetlərin inkişafında əhəmiyyətli rol oynayacaq. Bir də yenilik ondan ibarətdir ki, bir il ərzində dövriyyəliyi gündəlik, həftədə üç dəfə və həftəlik çıxan bütün qəzetlər müsabiqədə iştirak edə bilər. Yəni bu müsabiqəyə indiyə qədər KİVDF-dən maliyyə almayan qəzetlər də qatıla bilər. Bu da təqdirəlayiq haldır. Hansı qəzet Azərbaycan ictimai-siyasi rəyinə təsir göstərirsə, maliyyələşəcək və bu da qəzet bazarında sağlam rəqabətin yaranmasına səbəb olacaq" - deyə Ş.Ağayev vurğuladı.

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan - İsrail hərbi-ticari əməkdaşlığı Ermənistana daha bir gözdağı verir...

**Bu gün müasir tələblərə cavab verən silah istehsalçıları sırasında xüsusi yer tutanlardan biri də Azərbaycanla daim strateji əməkdaşlığa can atan İsraildir. Bu ölkənin illik silah ixracının həcmi artıq illik 10 milyard dolları keçir. Stokholm Beynəlxalq Sülh Araşdırması İnstitutunun açıqlamalarından isə belə bəlli olur ki, İsrailin silah satdığı əsas ölkələrdən biri də Azərbaycandır.**

Burada bir məqamı da qeyd edək ki, İsrail müəyyən silahları yalnız Azərbaycana ixrac edir. Bu səbəbdən elə müasir silahlar var ki, onlar yalnız İsrail və Azərbaycan ordularında mövcuddur. İşğalçı Ermənistan isə vaxtaşırı İsrailin Azərbaycana silah satışına öz etirazını bildirsə də, bunun Dağlıq Qarabağ münaqişəsinə təsir etdiyini bəyan etsə də, İrəvanın dediklərinə məhəl qoyan yoxdur. Əksinə, Azərbaycan İsraildən yeni hərbi texnikaların idxalını davam etdirir. Məsələn, bu il Azərbaycan İsrailin "Plasan" şirkətindən "SandCat" zirehli avtomobilinin "StormRider" adlı yeni modifikasiyasını alıb. Yeni maşın üzərində bir ədəd 12.7 millimetrlik NSVT pulemyotu və bir ədəd avtomatik qumbaraatan qurğusu yerləşdirilmiş döyüş modulu ilə silahlandırılıb. "SandCat" zirehli maşın xəttinin yeni nümunəsi olan "StormRider" 10 nəfər daşıyır. Müstəqil asqı sisteminə sahib olan zirehli maşının minaya qarşı qoruması ən yüksək səviyyədədir. Qeyd edək ki, hazırda Azərbaycan Ordusunun silahlanmasına "SandCat"ın müxtəlif variantları daxildir.

Qarşıdakı dövr ərzində də Azərbaycan İsraildən müxtəlif hərbi texnikanın idxalını planlaşdırır. Elə bu günlərdə "The Jerusalem Post" qəzeti qeyd edilən məsələyə toxunaraq, Azərbaycanı İsrail üçün hərbi müstəvidə də mühüm tərəfdaş adlandırıb. Qəzet bu səbəbdən bəzi silah nümunələrinin İsrail tərəfdən yalnız Azərbaycana satıldığını bildirir: "Məsələn, İsrailin "Israel Aerospace Industries" konserni bərk yanacaqla işləyən birpilləli LORA operativ-taktiki raket kompleksinin sınaqlarının uğurla başa çatması barədə rəsmi məlumat verib. Azərbaycan isə İsrailin həmin raket komplekslərini göndərdiyi ilk və yeganə ölkədir. Qeyd etmək lazımdır ki, Azərbaycan ordusu hələ iki il bundan əvvəl LORA ilə təchiz olunub. Azərbaycan İsrailin bu raketləri göndərdiyi ilk və yeganə ölkədirsə, deməli, İsrail-Azərbaycan münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır, dövlətlərarası siyasi və hərbi-texniki tərəfdaşlıq etimadın və daimi dialoqun ən yüksək səviyyəsinə dəlalət edir. Bu tərəfdaşlıq əvvəllər energetika sahəsinə yönəlmişdi, indi isə tərəfdaşlıq iqtisadiyyatın digər sektorlarına da, o cümlədən kənd təsərrüfatı, yüksək texnologiyalar sənayesi, səhiyyə, hərbi-texniki tərəfdaşlıq sahələrinə də şaxələndirilib. İsrailin müdafiə şirkətləri Azərbaycan hərbi sənayesinin qurulmasında fəal iştirak edib və bu iştirak davam edir. Qeyd etmək lazımdır ki, İsrail dünya bazarında Azərbaycan neftinin əsas strateji alıcılarından biridir. LORA operativ-taktiki raket kompleksi mövzusuna qayıdaraq qeyd etmək lazımdır ki, bu raket 2004-cü ilin mart ayında Aralıq dənizində uğurla sınaqdan keçirilib və İsrail müdafiə ordusunda müvəffəqiyyətlə istifadə edilir. LORA raketinin yeni sınaqları bir qədər yeni modifikasiyanın sınaqlarıdır. Bundan əlavə, hər hansı ölkənin Azərbaycana göndərdiyi hər bir silah Azərbaycan Silahlı Qüvvələrində zəruri sınaq və test yoxlamalarından keçirilir. Bütün bunlara baxmayaraq, Ermənistan İsraillə hansısa etimada əsaslanan münasibətlər qurmaq ümidindən o tərəfə keçməyib. Xatırladaq ki, İsrail hərbi-sənaye kompleksi yetərincə ciddi qurumdur və İsrail Müdafiə Nazirliyinin tam nəzarəti altında fəaliyyət göstərən çox ciddi peşəkarlar komandasıdır. Bugünkü Azərbaycan ordusu isə Cənubi Qafqazda ən qüdrətli ordu, ən müasir texnika və silahlar, ən yüksək döyüş hazırlığı, şəxsi heyətin intizamı və döyüş ruhu deməkdir. Müasir müharibədə kimin döyüş əməliyyatlarını təmin etmək üçün daha müasir yüksək texnoloji vasitələri varsa, həmin tərəf qalib gəlir. 2016-cı ilin aprel əməliyyatı zamanı erməni işğalçılara qarşı İsrailin pilotsuz zərbə qurğularının səmərəli tətbiq edilməsini xatırlamaq kifayətdir. Bu barədə çox danışmaq olar. İsrail müstəqil Azərbaycanı tanımış ilk ölkələrdən biri olub. Avrasiyada heç bir ölkə İsraillə Azərbaycan qədər sıx dostluq münasibətlərinə malik deyil. Bu gün Azərbaycan Cənubi Qafqazda geosiyasi və geoiqtisadi proseslərin mərkəzi hesab edilən güclü müstəqil dövlətdir. Azərbaycan fəal çoxvektorlu müstəqil xarici siyasət yürüdür. Gözlənən geosiyasi manevələrə və labirintlərə baxmayaraq, İsrail və Azərbaycan möhkəm və sarsılmaz tərəfdaşlıq qurmağa nail olub".

Həqiqətən də Azərbaycan və İsrail etibarlı hərbi tərəfdaşlıq münasibətlərinə malikdir. Ölkəmizdə silah sənayesinin formalaşmasında və ordumuzun müasir silahlarla təchiz edilməsində İsrail əhəmiyyətli müttəfiq kimi mühüm rol oynayır. Qeyd edək ki, Azərbaycan və İsrail arasında hərbi-texniki əməkdaşlıq, silah və hərbi texnikanın alınması 15 il əvvələ təsadüf edir. 2005-ci ildən başlayaraq ölkələrimiz arasında bu sahədə fəal əməkdaşlıq aparılır. Azərbaycan Hərbi Hava Qüvvələrinin inventarında İsrail istehsalı olan "Orbiter-2M" və "Aerostar" tipli pilotsuz uçuş aparatlarına rast gəlmək olar. 2011-ci ildə Azərbaycan və İsrail şirkətinin birgə qurduğu "AZAD sistemlər" müəssisəsi fəaliyyətə başlayıb. Bu müəssisədə "Orbiter-2" pilotsuz uçuş aparatlarının istehsalı həyata keçirilir. "Orbiter-2" aparatları həm ordumuzun istifadəsinə verilib, həm də bir sıra ölkələrə ixrac edilib. Azərbaycan İsraildən aprel döyüşlərində istifadə etdiyimiz "Harop" silahlarını da alıb. Eyni zamanda "Heron" və "Hermes" tipli pilotsuz uçuş aparatları da İsrail istehsalıdır. İsraildən aldığımız "Barak-8" zenith-raket kompleksinin atış mənzili 90 kliometr, hədəfi məhv etmə yüksəkliyi isə 16000 metrə yaxındır. Yüksək manevr qabiliyyətinə malik "Barak 8" iki pilləli raket mühərrikinə sahibdir və şaquli atışla buraxılır. "Barak-8" ZRK gəmi əleyhinə raketlərə, superonik raketlərə, ballistik raketlərə, təyyarə, helikopter, PUA kimi hava təhdidlərinə qarşı nəzərdə tutulur. Ordumuz İsrailin "Elbit Systems" şirkəti ilə birgə modernizə edilmiş və aktiv müdafiə sistemi ilə təchiz edilmiş T-72SİM1 tankına sahibdir. Tankın üzərində qurulmuş lazer aşkarlayıcı lazerlə idarə olunan tank əleyhinə raketləri 360 dərəcə ətrafda 600 metr məsafədən aşkarlamağa imkan verir. Bundan sonra avtomatik şəkildə işə düşən sursat 100 metr məsafədən təhdidi məhv edir. Barəsində yuxarıda bəhs edilən LORA raketləri isə germetik atıcı-nəqlyyat konteynerlərində yerləşdirilir və səhra şəraitində 7 il müddətinə qədər saxlanıla bilir. Bu raketlər , GPS ilə inteqrasiya edilən ətalətli naviqasiya sistemi tərəfindən bütün uçuş trayektoriyası üzrə idarə edilir. GPS ilə inteqrasiya edilən ətalətli naviqasiya sistemi sayəsində raketlərin bütün uçuş trayektoriyası üzrə hərəkətinə nəzarət edilir, tələbat yarandıqda trayektoriyaya düzəlişlər edilir. Yüksək dəqiqlik raketi "Navstar" kosmik radionaviqasiya sisteminin tətbiqi nəticəsində əldə olunur. "Israel Aircraft Industries" şirkəti tərəfindən hazırlanan idarəetmə bloku hesabına 10 metrə qədər hədəfdən yayınma ehtimalı əldə edilir ki, bu da LORA raketlərini sinfinin ən dəqiq raketlərindən birinə çevirir. Raketlər həm yerüstü, həm də dəniz bazasından buraxıla bilər. Buraxılış nəqliyyat atıcı konteynerlərinin şaquli vəziyyətində həyata keçirilir. Raket hədəfə aşağı sürətlə enməni atəş məsafəsinin artırılması üçün istifadə edir. Eyni zərbədə LORA atıcı nəqliyyat konteynerində yerləşən 4 ədəd raketin hər biri müxtəlif hədəflərə yönəldilə bilər. Azərbaycanın aldığı müasir "Polonez","Smerç", "Lynx", 9K79-1 "Toçka" və digər sistemlərlə birlikdə LORA raketləri ordumuzun zərbə imkanlarını daha da artırır.

Ölkəmiz İsraildən digər çoxsaylı müasir silahlar da alıb. Hazırda İsraillə hərbi əməkdaşlığımız daha da genişlənir. Yayılan məlumatlara görə, növbəti mərhələdə Azərbaycan İsraildən "Dəmir günbəz" komplekslərinin alınmasını nəzərdə tutub. Bu komplekslər Azərbaycanın hava hücumundan müdafiəsini və raket hücumlarına qarşı müdafiəsini daha gücləndirmiş olacaq. Yuxarıda qeyd edildiyi kimi, Ermənistan İsrailin Azərbaycana silah satışına mane olmaq istəsə də, bunun üçün ABŞ-da erməni lobbisi hərəkətə gətirilsə də İrəvan heç bir nəticəyə nail olmayıb. Əksinə, İsrail və Azərbaycan arasında hərbi əməkdaşlıq getdikcə dərinləşir. Təbii ki, bu fonda İsraildən alınan silahlar, Qarabağ münaqişəsi hərbi müstəvidə həll ediləcəyə təqdirdə, 2016-cı ilin aprelində olduğu kimi yenə Ermənistana böyük şok yaşadacaq. Ordumuzun döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin müasir silah və texnikadan məharətlə istifadə bacarığına yiyələnməsi üçün maddi-texniki bazanın inkişaf etdirilməsi isə davam etdirilir. Bu da o deməkdir ki, ordumuz istənilən an işğal altında olan torpaqlarımızı azad etməyə, düşmənin bütün strateji hədəflərini məhv etməyə qadirdir. Beynəlxalq hərbi ekspertlərin də etiraf etdiyi kimi, müdafiə qüdrəti artan Azərbaycan ordusunun qarşısında erməni tərəfinin duruş gətirməsi sadəcə mümkünsüzdür.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşinyan repressiyaları genişləndirir, "azadlıq carçısı" beynəlxalq təşkilatlar susur... Rusiyada kölgə oyunu...

**Ermənistanda mövcud hakimiyyətə müxalif qüvvələrin arasında baş verənlər bu ölkədə diktatura rejiminin rəqiblərini artıq güc yolu ilə sıradan çıxarmaqda maraqlı olduğunu göstərir. "Çiçəklənən Ermənistan" Partiyasının sədri, parlamentdəki "Tsarukyan" fraksiyasının lideri, milyonçu siyasətçi Hagik Tsarukyanın ətrafında baş verənlər də bunun real təsdiqidir.**

Xatırladaq ki, artıq Ermənistan parlamentində Tsarukyanın deputat toxunulmazlığı ləğv edilib. Baş prokurorluq tərəfindən onun həbsinə icazə verilməsi üçün qanunverici orqan qarşısında qaldırılan vəsatət də təmin olunub. Bu fonda Tsarukyanın tezliklə həbsə atılması gözlənilir. Onun məhz Nikol Paşinyan hakimiyyətini tənqid etməsindən sonra təzyiqlərə məruz qalması baş verənlərin siyasi təqib olduğunu sübut edir. Yəni budəfəki təqiblərin Paşinyanın birbaşa göstərişi ilə həyata keçirildiyi heç kimə sirr deyil. Ümumiyyətlə, populist çıxışları ilə tanınan Nikol Paşinyanın hakimiyyətə gəldikdən sonra "demokratiya" adı altında ölkənin tanınmış siyasi və ictimai xadimlərinə qarşı repressiv vasitələrdən geniş şəkildə istifadə etməsi və onları bir-bir sıradan çıxararaq zərərsizləşdirməsi hər kəsə məlumdur. Ermənistanın baş naziri öz siyasi rəqiblərini bir-bir həbsə atır, onları hətta "asfalta uzatmaqla" hədələyir. Paşinyan tərəfindən indiyədək Ermənistanın keçmiş rəhbərliyinə qarşı silsilə cinayət işləri açılıb və hazırda istintaq davam edir. Ölkədə faktiki olaraq siyasi repressiyalar həyata keçirilir. İndi ekspertlər bildirir ki, Ermənistanda totalitar inqilabi diktatura qurulub. Amma Tsarukyanla bağlı son hadisələr fonunda "azadlıq carçısı" olan bəzi beynəlxalq təşkilatların, beynəlxalq QHT-lərin, ümumən bir sıra Qərb təşkilatlarının səssizliyi də diqqətdən yayınmır. Məsələn, ABŞ Dövlət Departamenti, Avropa Şurasının Parlament Assambleyası, ATƏT-in Media Azadlığı üzrə nümayəndəsi, ABŞ-ın Ermənistandakı səfiri, Qərb ölkələrinin Ermənistandakı səfirlikləri hələ də məsələyə laqeyd yanaşırlar. Bəzi ekspertlər hesab edir ki, Paşinyanla bağlı bu mövqenin səngilənməsində onun amerikalı iş adamı Corc Soros tərəfindən dəstəklənməsi də müəyyən rol oynayır.




Bu durumda Paşinyan siyasi rəqiblərini güc yolu ilə sıradan çıxarmaqda davam edir. Belə vəziyyətdə onun rəqibləri bir araya gəlib Rusiyanın yardımı ilə Paşinyanı durdurmağa çalışır. Ermənistanın "Daşnaksütyun" Partiyası da bir sıra siyasi qüvvələrin bir araya gəlməsi də bunu təsdiq edir. Söhbət "Çiçəklənən Ermənistan", "Daşnaktsütyun", "Vətən", "Milli Gündəm" və "Vahid Ermənistan" partiyalarından gedir.

"Qarabağ klanı" da onlara dəstəkverməyə hazır olduğunu bildirir.

Barəsində bəhs edilən görüşün baş tutması Ermənistanda müxalifətin birləşməsi prosesi haqqında danışmağa əsas verir. "1in.am" nəşrində erməni siyasi analitik Aram Amatuni məsələ ilə bağlı yazır:"Məsələ burasındadır ki, müxalif qüvvənin ilk göstəricisi sosial dəstəyin reallığı olmalıdır. Bu baxımdan "Çiçəklənən Ermənistan" Partiyası və "Daşnaktsütyun" daha çox dəstəyə malikdir. Onların sosial dəstəyi nədir, hakim çoxluqla müqayisədə neçə faiz təşkil edir, bu, məsələnin digər tərəfidir. Amma əsas məsələ burasındadır ki, müxaliflər Ermənistanda əsasən Rusiya Xarici İşlər Nazirliyinin himayəsi altında bir araya gəlir. İndi də bu himayə altında fəaliyyət göstərən sistemlə əlaqəli istənilən "dəfinə" yalnız Vladimir Putinin yeni dövrü və iqtidar məsələsi ətrafında baş verə biləcək Rusiya hökumətində "dəfinələrin" yenidən bölüşdürülməsi ilə birbaşa əlaqəli ola bilər. Bu mənada, orada, yəni Rusiyada kölgə oyunu Ermənistanda əks olunan kifayət qədər kəskin mübarizə fonunda gedir".

Burada xatırlatmaq yerinə düşər ki, Tsarukyan sabiq prezident Robert Köçəryanın adamıdır. Köçəryan isə Rusiya prezidenti Vladimir Putinin dostudur. Bu zəncirin halqalarını davam etdirsək, "Çiçəklənən Ermənistan"ın yiyəsinin yönünün şimala olduğu qənaətinə gələ bilərik. Bu isə Paşinyanın Rusiyanın daha bir adamını həbsə göndərməyə qərar verdiyini göstərir. Yəni Paşinyan Kremlin adamlarına qarşı mübarizəni davam etdirir. Elə bu da Kremlin xoşuna gəlmir. Digər tərəfdən xatırladaq ki, hələ ötən ilin yayında payızda 20 siyasi partiyadan ibarət yeni siyasi blok elan ediləcəyi barədə məlumat yayılmışdı. Yeni yaranacaq siyasi bloka Ermənistanda tanınmış siyasi xadimlər, bir sıra ictimai təşkilatlar və cəmiyyətlərin daxil olacağı gözlənirdi. Bu məlumat yayılmazdan bir müddət əvvəl Robert Köçəryan verdiyi müsahibədə hakimiyyət məsələsinin küçələrdə, növbədənkənar seçkilərdə həll olunacağını bildirmişdi. Görünür, Robert Köçəryanın nəzərdə tutduğu müxalifət payızda deyil, Tsarukyan ətrafında baş verənlərdən sonra indi birləşir.

Rusiya da bu qüvvələrə dəstək verir. Birləşmiş müxalifətin liderinin isə Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru, "Vətən" Partiyasının sədri Artur Vanetsyanın olması gözlənilir. O bildirir ki, ölkədə fəlakət baş verdiyindən, vəziyyət gündəngünə ağırlaşdığından Paşinyan istefaya getməlidir. Bu durumda müxalifətin əsas istəyi ölkədə yeni parlament seçkilərinə nail olmaqdır. Məsələ burasındadır ki, müxalif deputatların perspektivdə parlamentin işində iştirakdan imtina etməsi qanunverici orqanın işini iflic edər. Ermənistan qanunlarına əsasən, müxalifət parlamentdə təmsil olunmasa, növbədənkənar seçkilər keçirilməlidir. Bu halda hakimiyyətin taleyi yenə küçələrdə həll olunacaq. Amma indi Paşinyan küçələrdən daha əvvəlki dəstəyi ala bilmir. Bu isə onun devrilmə ehtimalını artırır.

***Nahid SALAYEV***

**Böyük Britaniyanın BP şirkətinin açıqladığı son hesabat Azərbaycanın hələ bundan sonra da dünya neft bazarında əsas oyunçulardan biri olaraq qalacağını göstərir. Qeyd edək ki, BP şirkəti Azərbaycanda təsdiq olunmuş neft ehtiyatları üzrə qiymətləndirilməsini dəyişməyib.**

# Azərbaycanın yenə neft bazarının əsas oyunçularından biri olacağı dünya miqyasında təsdiqlənir



Şirkət bəyan edir ki, 2019-cu ilin sonuna Azərbaycanın təsdiq olunmuş neft ehtiyatları 1 milyard ton və ya 7 milyard barrel təşkil edib ki, bu da 2018-ci ilin göstəricisinə bərabərdir.

Hesabata əsasən, 2019-cu ilin sonuna dünyada təsdiq olunmuş neft ehtiyatları 244,6 milyard ton və ya 1 trilyon 733,9 milyard barrel təşkil edib. Bunun da 0,4%-i məhz Azərbaycana məxsusdur. Amma yeni ehtiyatlar hesabına bu göstəricinin bir qədər də artıq olması istisna deyil. Elə bu səbəbdəndir ki, BP və digərləri Azərbaycanla neft sahəsində əməkdaşlığı bundan sonra da davam etdirməkdə maraqlıdır. Qeyd edək ki, BP hazırda Azərbaycanda bir sıra neft-qaz layihələrinin aktiv iştirakçısıdır. Belə ki, şirkət Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" (AÇG) neft-qaz yataqları blokunun operatorudur. Azərbaycanda hasil edilən neftin böyük hissəsi məhz bu yatağın payına düşür. Ölkəmizlə BP arasında hasilata dair ilkin razılaşma 30 il müddətinə etibarlı olub, 2024-ci ildə başa çatmalı idi. Buna baxmayaraq, 2017-ci il sentyabr ayının 14-də Azərbaycan hökuməti və SOCAR, beynəlxalq tərəfdaş şirkətlərlə birlikdə AÇG-nin birgə işlənməsi və Hasilatın Pay Bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişi imzaladılar. AÇG-nin 2050-ci ilə qədər inkişafını əhatə edən yeni müqavilə əsrin ortalarınadək blokun inkişaf potensialını əhəmiyyətli dərəcədə artırmağa imkan verdi. Müqavilənin bu müddətə uzadılması Azərbaycanın neft ehtiyatlarına böyük ümidlərin olması ilə bağlıdır.

Digər tərəfdən, yuxarıda qeyd olunduğu kimi, mövcud vəziyyət Azərbaycana uzun müddət neft bazarında əsas oyunçulardan biri qismində qalmağa imkan verir. Eyni zamanda dünyada o da etiraf edilir ki, Azərbaycan neft gəlirlərindən ən səmərəli şəkildə istifadə etməyi bacaran azsaylı ölkələrdən biridir. Elə neftin ucuzlaşdığı dövrdə neft ixracatçısı ölkələrin vəziyyətinə dair "Moody's Investors Service" beynəlxalq reytinq agentliyinin son hesabatında da bunu görmək olar. Burada bildirilir ki, Azərbaycan, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Qazaxıstan, Qətər böyük suveren aktivləri və xarici valyuta ehtiyatları sayəsində koronavirus pandemiyası nəticəsində dünya bazarında neftə tələbatın və qiymətlərin azalmasını sovuşduracaq:"Sarsıntını sovuşdura bilmələri siyasətə düzəliş vermə bacarığından və nə qədər dayanıqlı olmalarından asılıdır. Bu ölkələr, ən azı, sarsıntıya tab gətirmək üçün məxariclərini azalda bilər. Digər tərəfdən, Oman, İraq kimi dərin və uzun çəkə bilən sarsıntılara uyğunlaşma bacarığı məhdud olan, habelə Bəhreyn kimi likvidliyin artan təzyiqinə məruz qalan, az dayanıqlı olan dövlətlər daha böyük risqlə üzləşir". Sənəd müəlliflərinə görə, karbohidrogen istehsal edən bir çox ölkələr daha əvvəl neftin bahalaşdığı dövrlərdə topladığı aktivlər sayəsində neftin ucuz olacağı dövrdə daha uzun müddət dayanıqlı ola bilər. Bunlar sırasında yer alanlardan biri də məhz Azərbaycandır:"Bu da ölkənin valyuta ehtiyatlarının dövlət borcunu xeyli üstələməsi fonunda özünü göstərir". Qurum xatırladır ki, 2019-cu ildə Azərbaycanda, BƏƏ-də, Qazaxıstanda və Qətərdə valyuta ehtiyatları dövlət borcunu xeyli üstələyib, Səudiyyə Ərəbistanının dövlət borcunun 100 faizinə, Rusiyanın dövlət borcunun isə 50 faizinə bərabər olub. Xatırladaq ki, "Moody's" Azərbaycana "sabit" proqnozlu Ba2 kredit reytinqi təyin edib.

Bununla yanaşı hesab edilir ki, neftin yenidən artan qiyməti Azərbaycanın manevr imkanlarını artıracaq. Hazırda Azərbaycan neftinin satış qiyməti 42 dolları keçir. Qarşıdakı dövr ərzində neftin daha da bahalaşması gözlənilir. Bunu Sarbon Universitetinin professoru Jan-Antuan Düpra da təsdiq edir:"Əgər iqtisadi durğunluq neftin qiymətinin düşməsinə səbəb olubsa, demək iqtisadiyyatın neftə ehtiyacı var. İqtisadiyyat yenidən dirçəldikcə, neftin qiyməti də qalxacaq". Professor bildirib ki, koronavirus böhranı bitdikdən sonra iqtisadiyyat dirçəlməyə başlayacaq və bu da neftin qiymətinin qalxmasına səbəb olacaq:"Neftin qiymətinin düşməsinə iqtisadiyyatın tənəzzülü səbəb olub. Neft hasil olunduqca, istehlak da olmalıdır. İqtisadiyyatda durğunluq baş verən zaman neftə ehtiyac azalır. Nefti isə nə saxlamaq, nə də atmaq mümkündür. Eyni zamanda, neft dayanmadan istehsal olunan bir xammaldır. Lakin iqtisadi durğunluq neftin qiymətinin düşməsinə səbəb olubsa, demək iqtisadiyyatın neftə ehtiyacı var. İqtisadiyyat yenidən dirçələn kimi neftin qiyməti də qalxacaq".

Jan-Antuan Düpra iqtisadiyyatın yenidən dirçələcəyi vaxta da aydınlıq gətirib:"Neft, əsasən elektrik istehsalı, avtomobillərin hərəkəti üçün istifadə olunur. Lakin unutmayaq ki, bunlardan başqa neft hava nəqliyyatında, təyyarələrin hərəkəti üçün də əsas xammaldır. Bu da o deməkdir ki, neftin qiymətinin tam qalxmasını yalnız beynəlxalq hava xətlərinin tam bərpasından sonra gözləmək olar. Ancaq neftin dünya bazarında qiyməti yalnız alıcı və satıcı münasibətləri əsasında tənzimlənmir. Neft istehsalçısı ölkələr danışıqlar yolu ilə neftin qiymətinə dair qərar verə bilərlər". Rusiyanın energetika naziri Aleksandr Novak isə bu xüsusda qeyd edir ki, neft qiyməti artıq yüksəlişə keçir:"Rusiyanın Energetika Nazirliyi dünya bazarında neftə tələbatın əvvəlki səviyyəyə qayıtma ehtimalını yüksək dəyərləndirir. Aprel ayında gördüyümüz ən gərgin vəziyyətlə müqayisədə artıq təyyarə uçuşları, avtomobil nəqliyyatı, neft-kimya sahələrində tələbat haradasa yarıbayarı bərpa olunub. İndi bütün bunları diqqətlə izləməli, bundan sonra da tələbatın necə dəyişəcəyinə dair düzgün proqnoz verməliyik. Mən nikbin düşünürəm". Bu fonda aydındır ki, Azərbaycanın neft gəlirləri bundan sonra da artacaq. Belə vəziyyət isə Azərbaycana neft sahəsində əlavə manevr imkanları qazandırır.

***Ramil QULİYEV***

# Azərbaycanın turizm sektorunun postpandemiya dövrü üçün inkişaf meyllərinə Dünya Bankının marağı...

**Dünya Bankının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bankın Avropa və Mərkəzi Asiya regionu üzrə yeni təyin olunan vitse-prezidenti xanım Anna Byerde, Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus və bankın digər nümayəndələri arasında videokonfrans keçirilib.**

*"Pandemiya dövründə turizm sektorunun inkişaf etməsi üçün bu sahəyə yardım göstərilməlidir"*

## *Elçin Rüstəmov: "Pandemiyanın zərər vurduğu, hətta iflic etdiyi əsas sahələrdən biri də turizmdir"*



Görüş zamanı bir sıra məsələlərə toxunulub. O cümlədən, Azərbaycan turizminin inkişafı və problemləri də nəzərdən keçirilib.

Prezident İlham Əliyev çıxış edərək qeyd edib ki, postpandemiya dövrü böhranını idarə etmək üçün bizim ölkə strategiyasına ehtiyacımız var. Çünki iqtisadiyyatımızın bəzi sahələri ciddi şəkildə zərər çəkdi. Xüsusilə də yaxşı nəticələrimiz olan və son 4 ildə artımın olduğu turizm sahəsi: "Həqiqətən Azərbaycan turizm xəritəsində maraqlı istiqamətə çevrilib. Beləliklə, pandemiyadan sonra biz bu sektoru canlandırmaq və Azərbaycanı yenidən xarici turistlər üçün cəlbedici etmək istiqamətində çox çalışmalıyıq. Çünki turizm sərbəst konvertasiya olunan valyuta yaradan sektorlardan biridir. Qeyri-neft və qeyri-qaz ixracından gələcək daha çox sərbəst konvertasiya olunan valyuta ehtiyatlarına ehtiyacımız var. Ona görə də kənd təsərrüfatı, turizm, texnologiya düşünürəm ki, bizim diqqətimizi cəmlədiyimiz əsas sahələr olacaq".

"New Era" turizm şirkətinin rəhbəri, turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov qeyd etdi ki, pandemiyanın zərər vurduğu, hətta iflic etdiyi əsas sahələrdən biri də turizmdir. Hazırda sərhədlər bağlı olduğundan, bütün dünya ölkələrində turizm sektorunun fəaliyyəti tamamilə dayanıb. Ölkələr turizmi yenidən dirçəltmək üçün müxtəlif addımlar atırlar. Həmin addımlar eynilə də ölkəmizdə atılır: "Bu sahədə beynəlxalq təcrübəyə istinadən işlər görülə bilər. Tendensiya bütün ölkələrdə eynidir. Məlumdur ki, koronavirusla bağlı olaraq uçuşlar bir neçə ay idi ki, dayanmışdı. Artıq bəzi ölkələrdə uçuşların həyata keçirilməsinə icazə verilir. Üzü yaya doğru getdiyi üçün axının böyük hissəsinin yay istirahət komplekslərinə olacağı gözlənir. Çimərlik mövsümü başladıqdan sonra əsas kütlə bu sahəyə yönələcək. Bu da, təbii ki, həmin ərazilərdə yerləşən turizm obyektlərinin gəlirinin genişlənməsi üçün olduqca əlverişli şərait yaradacaq. İnsanlar qoyulan gigiyenik qaydalara əməl etməklə bütün turizm xidmətlərindən istifadə edə bilərlər".

Həmsöhbətimiz onu da əlavə etdi ki, pandemiya dövründə turizm sektorunun inkişaf etməsi üçün bu sahəyə yardım göstərilməlidir.

***Günel CƏLİLOVA***

# Pandemiyada Azərbaycan üçün mütləq əksər dövlətlərdən fərqli daha bir pozitiv - bizdə problemli kreditlər 0,2 faiz azalıb

**Koronavirusla əlaqədar əksər dünya ölkəsində özünü göstərən problemlərdən biri də vaxtı keçmiş kreditlərin artmasıdır. İş yerləri bağlandığından, vaxtı keçmiş kreditlər artır. Sözügedən səbəblər üzündən bir çoxu götürdüyü kreditləri vaxtında ödəyə bilmir.**

*"Əhalinin bir hissəsi kredit götürərkən məsələyə daha ehtiyatlı yanaşır və..."*

## *Firdovsi Şahbazov: "Ümumilikdə, koronavirus şəraitində vaxtı keçmiş kreditlərin həcminin cüzi də olsa azalması müsbət tendensiyadır"*




Elə ölkələr var ki, orada bu sahədə vəziyyət daha kəskin hal alıb.

Ancaq Azərbaycanda bununla bağlı müsbət meyllər müşahidə olunur. Belə ki, ilin əvvəlindən bəri ümumi kreditləşmədə vaxtı keçmiş kreditlərin payı 0,2% azalıb. Əgər ilin əvvəlinə kreditləşmənin ümumi həcmi 15 milyard 298 milyon 200 min manat, vaxtı keçmiş kreditlər bunun 8,3%-ni təşkil edirdisə, aprel ayının sonuna kreditləşmənin ümumi həcmi 15 milyard 146 milyon 800 min manat, vaxtı keçmiş kreditlərin həcmi 8,1% təşkil edib. Mərkəzi Bankın məlumatlarına görə, 2020-ci il may ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 15146,8 milyon manat təşkil edib, onun 12449,4 milyon manatı uzunmüddətli kreditlər olub. Əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği 2020-ci il may ayının 1-nə 7 milyard 758 milyon manat təşkil edib.

Bütövlükdə, vaxı keçmiş kreditlərin çəkisinin azalmasını ekspertlər necə dəyərləndirirlər?

Sözügedən məsələni şərh edən iqtisad üzrə fəlsəfə doktoru Firdovsi Şahbazovun fikrincə, ölkədə vaxtı keçmiş kreditlərin azalması bir sıra amillərlə bağlıdır: "Ümumilikdə, koronavirus şəraitində Azərbaycanda vaxtı keçmiş kreditlərin həcminin cüzi də olsa azalması müsbət tendensiyadır. Çünki bir sıra ölkələrdə belə kreditlərin həcmi artır. Ötən il Prezident İlham Əliyevin problemli kreditlərin həlli ilə bağlı verdiyi qərar bu sahədə vəziyyəti xeyli yaxşılaşdırıb. Bununla yanaşı, banklar əvvəlki kimi kimə gəldi kredit vermirlər.

**Şərtlərdə dəyişiklər var. Digər tərəfdən, əhalinin bir hissəsi kredit götürərkən məsələyə daha ehtiyatlı yanaşır və çalışır vaxtında ödəniş etsin. Üstəlik, koronavirus pandemiyası üzündən biznes mühitində müəyyən passivlik var və bu səbəbdən kreditə tələbat müvəqqəti azalıb. Bütün bu səbəblər üzündən ölkədə vaxtı keçmiş kreditlərin həcmi azalmağa doğru gedir".**

***Vidadi ORDAHALLI***

# Bir neçə böyük xəstəxana koronavirusla mübarizə rejiminə keçid üçün bağlandı - Azərbaycanda artan yoluxmalara adekvat əks tədbirlər də artır

**Bu gün ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində kifayət qədər işlər görülür. Bu istiqamətdə yeniliklərin də olduğunun şahidi oluruq. Məlum olduğu kimi, Göyçay, Ucar və Zərdab rayon mərkəzi xəstəxanaları da koronavirus xəstələri üçün ayrılıb.**

*"...onların yükünü qonşu rayonlar öz üzərinə götürəcək"*

***Adil Qeybulla:*** *"Bu rayonlardakı xəstəxanalar da koronavirusa yoluxanların müalicəsinə cəlb olunublar"*



Bu barədə "Trend"ə açıqlamasında Göyçay Rayon Mərkəzi Xəstəxanasının direktoru Elçin Bilalov deyib. Onun sözlərin görə, həmin tibb müəssisələri xəstə qəbulunu dayandırıb, xəstələrin köçürülməsinə başlayıb: "Hazırda xəstəxanada stasionar müalicə alan 60-dan artıq xəstə var. Həmin xəstələrin köçürülməsi ilə məşğuluq. Xəstəliyi ilə əlaqədar vəziyyəti ağırlaşan və müxtəlif hadisələr nəticəsində xəsarət alan şəxslər Göyçay Rayon Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına müraciət edəcək. Stansiyada bununla əlaqədar zəruri tədbirlər görülüb və şərait yaradılıb. Müxtəlif cərrahiyyə əməliyyatları və doğuş üçün müraciət edən, avtomobil qəzaları zamanı ağır xəsarət alan şəxslər, digər ağır xəstələr Kürdəmir, Ağsu, Yevlax və Mingəçevir xəstəxanalarına müraciət edəcəklər. Göyçay rayonunun kəndlərindəki tibb məntəqələri isə fəaliyyətini əvvəlki kimi davam etdirəcək, xəstələrə ilkin tibbi yardımlar göstəriləcək".

Direktor xəstəxanada COVID-19 xəstələrinə xidmət edəcək tibb işçilərinin sayının dəqiqləşdirildiyini bildirib: "Göyçay xəstəxanasında 100-dən çox tibb işçisi fəaliyyət göstərəcək, digər işçilər isə məcburi məzuniyyətə göndəriləcək. Əsasən 60 yaşdan yuxarı olan tibb işçiləri məcburi məzuniyyətə göndərilsə də, onlar aylıq əməkhaqlarını alacaqlar, ixtisar olmayacaq".

Bağlanan bu xətəxanalardan yalnız koronavirusa tutulan xəstələrin müalicəsi məqsədilə istifadə olunacaq. Bu kimi yenilənmiş tədbirlər virusla mübarizədə necə rol oynayacaq?

Tanınmış tibb mütəxəssisi, professor Adil Qeybullanın sözlərinə görə, bu qərar virusa yoluxanların sayının artması ilə bağlı verilib və sözügedən xəstəxanalar bu xəstələrin müalicəsinə yönəldilib: "Bilirsiniz ki, koronavirusa yoluxanların sayı durmadan artır və ona görə də Bakı şəhərindəki xəstəxanalarda yoluxanların yerləşdirilməsi üçün yer yoxdur. Bu xəstələr də xəstəxanalarda qısa müddətdə qalmırlar. Hər halda, bəzən iki və daha artıq həftə xəstəxanada qalıb müalicə alırlar. Bu baxımdan, artıq rayon xəstəxanaları da bu işə cəlb olunub. Bakıda 1 saylı Klinik Mərkəz, Su Tikinti Xəstəxanası, Bərpa Mərkəzi və bu rayonlardakı xəstəxanalar da koronavirusa yoluxanların müalicəsinə cəlb olunublar. Bu rayonlardakı xəstəxanalar da sözügedən kontingenti paylaşacaqlar. Sadəcə olaraq, onların yükünü qonşu rayonlar öz üzərinə götürəcək. Yəni bu artıq məcburi addımlardır" - deyə A.Qeybulla qeyd etdi.

***İradə SARIYEVA***

# Dünya ölkələrində koronavirusa yoluxmalar yenidən vüsət almağa başlayıb - daha sərt məhdudlaşdırıcı tədbirlər qaçılmaz olur...

**Dünyanın COVID-19-un qeydə alındığı 213 ölkə və bölgəsində təhlükəli infeksiyadan ölənlərin sayı 450 min nəfərə çatıb. Pandemiya ərzində təhlükəli virusdan, ümumilikdə, 4 213 601 nəfər sağalıb. Məlumat üçün bildirək ki, dünyada koronavirusa ən çox yoluxma ABŞ-da qeydə alınıb.**




***Rasif Bağırov:*** *"Virusa yoluxma halının artması tək ölkəmizdə deyil, bütün dünyada müşahidə olunur"*

Birləşmiş Ştatlarda təhlükəli infeksiyaya 2 182 950 yoluxma qeydə alınıb, koronavirusdan 118 283 nəfər ölüb.

COVID-19-a yoluxma üzrə siyahıda ikinci yerdə Braziliya qərarlaşıb. Cənubi Amerika ölkəsində 891 556 insan virusa yoluxub. Bununla yanaşı, 44 118 insan koronavirusdan vəfat edib.

Qonşu Rusiya da koronavirusa yoluxanların sayı üzrə ilk üçlükdə qərarlaşıb. Şimal qonşumuzda COVID-19-a 537 210 yoluxma təsdiqlənib, 7 091 insan pandemiyanın qurbanı olub.

Cənubi Asiya ölkəsi Hindistanda 343 026 insan cari ilin ən təhükəli virusuna yoluxub, 9 915 nəfər virusdan dünyasını dəyişib.

Böyük Britaniya Qərbi Avropanın koronavirusdan ən çox əziyyət çəkən ölkəsidir. Birləşmiş Krallıqda 296 857 nəfər COVID-19-a yoluxub, 41 736 insan ölüb.

Qərbi Avropanın digər ölkəsi İspaniyada yoluxma sayı 291 189, pandemiya qurbanlarının sayı isə 27 136 nəfər təşkil edir.

Siyahıda 7-ci yerdə virusa 237 290 yoluxma sayı ilə İtaliya qərarlaşıb. Qərbi Avropanın bu ölkəsində 34 371 nəfər virusdan ölüb.

Peru dünyada koronavirusa yoluxma hallarının sayına görə 8-ci yerdədir. Amerika ölkəsində 232 992 nəfər COVID-19 daşıyıcısı kimi qeydiyyata alınıb.

Qeyd etdiyimiz kimi, son zamanlar koronavirusa yoluxanların sayı artmaqda davam edir. Artım bütün ölkələrdə yaşanır.

Həkim-ekspert Rasif Bağırov bildirdi ki, son günlər koronavirusa yoluxmanın sayında artma müşahidə olunur: "İnsanlar çölə çıxarkən maskadan istifadə etmir, məsafə saxlamırlar, müəyyən gigiyenik qaydalara əməl olunmur. Bunların hamısı yoluxmaların sayının artmasına səbəb olur. İnsanlar zərurət olmadan evdən çıxmamalı, yəni sosial izolyasiya qaydalarına əməl olunmalıdır. İkincisi, çölə çıxarkən mütləq maska taxılmalı, əhalinin sıx olduğu yerlərə getməkdən çəkinilməlidir. Bu infeksiya havadamcı yolu ilə yayıldığına görə əhalinin daha sıx olduğu yerlərdə yoluxma risqi daha çoxdur. Əhali mütləq maskadan istifadə etməlidir. Yaxşı olar ki, N95 maskalardan istifadə edilsin, gigiyena qaydalarına riayət olunsun".

*"Qonşu ölkələrdə də virusa yoluxmanın artmasının əsas səbəbi insanların vəziyyətin ciddiliyini dərk etməməsi və..."*

Həmsöhbətimiz onu da əlavə etdi ki, karantin rejiminin nisbətən yumşaldılması virusa yoluxanların sayının artmasına səbəb olub: "Karantin rejiminin sərtləşdirilməsi növbəti günlərin yoluxma sayından asılı olacaq. Əgər yoluxma sayı artarsa, qaydalar nisbətən sərtləşdirilməlidir. Çünki qaydaların nisbətən yumşaldılması yoluxma sayının getdikcə artmasına səbəb oldu".

**Ekspert onu da əlavə etdi ki, virusa yoluxma halının artması tək ölkəmizdə deyil, bütün dünyada müşahidə olunur: "Bütün ölkələrdə virusa yoluxmanın artmasının əsas səbəbi insanların vəziyyətin ciddiliyini dərk etməməsi və bu məsələyə məsuliyyətsiz yanaşmasıdır".**

***Günel CƏLİLOVA***

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı-Xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabı çapa hazırlayırıq. Kitab Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edir.**

# İgid ömrü



## Onuncu yazı

**"Füzuli oğuluydu, oğul!"**

### Komandir Sərvərin dünyamızdakı sonuncu günü

Sabirabadadır yolumuz. Mesxeti türklərinin məskunlaşdığı Axısxa kəndində yaşayan, əslən Mesxeti türkü Sərvər Rəcəbovun görüşünə tələsirik. Ömrünün əhəmiyyətli hissəsini qəhrəmanlıqla xərcləmiş sabiq Xocalı döyüşçüsü, Xocalı Özünümüdafiə batalyonunun qərargah rəisi, kapitan, "Azərbaycan bayrağı" ordenli Sərvər Rəcəbovun. Füzuli haqqında bilgilənməkdi məqsədimiz. Azərbaycan ordusunun daha bir qəhrəmanıdı Sərvər. Onunla sadəcə görüşməyin belə fəxarət olduğunun fərqindəyəm. Üstəlik o, Füzuli Rüstəmovun - Milli Qəhrəmanımızın igidliklərinin canlı şahidlərindən biri kimi əvəzsiz məlumat mənbəyidi məndən ötrü.

Sabirabada artıq sizləri mümkün qədər yaxından tanış edə bildiyim Xocalı aeroportunun milis işçisi olmuş, Füzuli Rüstəmovun yaxın dostu, qonşusu, əməliyyatlar yoldaşı Nazim Hüseynovun maşınıyla gedirik. İkimizik. Yolboyu Nazimdən Füzuli ilə bərabər Sərvərin də xarakteri, kimliyi barədə məlumatlar alıram. Nazim sorğularımı kifayət qədər dolğun cavablandırır (arabir söhbətimiz Xocalının keçmişinə - soydaşlarımızın xocalılı günlərinə, ordakı yaşam tərzinə, hətta ermənilərlə o zamankı münasibətlərin bəzi detallarına qədər uzanır. Axtarışlarımın buna bir o qədər dəxli olmadığından o məlumatları buraya əlavə etmirəm - N.Z.). Əldə etdiyim məlumatlardan qaynaqlanan suallarımı və ona verilən cavabları isə Sərvərin öz dilindən təqdim edəcəyəm sizlərə. Soruşduqlarım mənim jurnalist marağımın "obyekti" hərtərəfli, yaxşı öyrənmək istəyinin büruzə verilmiş hissəcikləridir.

...Bu da Axısxa. Sabirabad rayonunun mərkəzindən təxminən 30 kilometr məsafədə yerləşən kəndin müasir standartlara cavab verəcək magistral yolu var. Deyilənə görə, bu rahat yolun yaşı çox deyil. Yaxın illərdə ərsəyə gətirilib. Kəndin içərisinə bir qədər girib Sərvərin evini soraqlayırıq. Qarşımıza çıxan ilk adamlar evin yerini göstərəndə onların çöhrəsində qəribə bir nigarançılıq, narahatlıq hisslərinin baş qaldırdığı diqqətimizi cəlb edir. Əbəs deyilmiş bu təlaşlar... Sərvəri çarpayıda, ölüm yatağında görürük. Komandir heç qalxıb bizimlə ayaq üstə görüşmək iqtidarında da deyil. "Qara ciyər serrozu" pəhləvan eloğlumuzu elə sarıb ki...

Vəziyyəti ilə maraqlanırıq. Ayaqları şişkin, iştahı yox. Kənd camaatı dəstə-dəstə onu yoluxmağa, əslində üzə vurmasalar da, onunla vidalaşmağa gəlir. Onlardan biri dedi ki, iki gün öncə sonuncu dəfə Sabirabad rayon xəstəxanasında ciyərindən su çəkiblər Sərvərin. Ailə üzvləri, doğmaları narazılıqlarını da izhar etdilər ki, belə bir döyüşçü ölüm yatağındadır, ancaq rayon rəhbərliyindən onunla maraqlanan yoxdur. Həkimlərin dediyinə görə isə, qara ciyər köçürülsə komandirin həyatını xilas etmək mümkün ola bilər.

### "Azərbaycan bayrağı" ordenli döyüşçü ölüm ayağındadır

Söhbətimizi bir qədər yubadıb, elə Axısxadaykən paytaxtda fəaliyyət göstərən bir neçə internet portallarına və sosialyönümlü televiziya verilişlərinin müəlliflərinə telefon açdım. Özüm tez-tələsik media qurumlarımıza aşağıdakı məzmunda müraciət hazırladım:

Əziz media qurumları! Əziz dostlar!

Respublika Xatirə Kitabının xəttilə Azərbaycanın Milli Qəhrəmanı Füzuli Rüstəmov haqqında yazdığım kitaba materiallar toplamaq üçün Sabirabad rayonuna ezam olunmuşam. Səfərdən məqsədim burada - mesxeti türklərinin məskunlaşdığı Axısxa kəndində yaşayan sabiq Xocalı döyüşçüsü, Xocalı Özünümüdafiə batalyonunun komandiri, kapitan, "Azərbaycan bayrağı" ordenli Sərvər Rəcəbovla həmsöhbət olmaqdır.

Xocalılı döyüşçülərdən olan Nazim Hüseynovun bələdçiliyi ilə baş tutan səfərimiz zamanı bu qəhrəman komandirin sağlıq durumu əhvalımızı korladı. Sərvər Rəcəbov hazırda "qara ciyər serrozu"ndan əziyyət çəkir. Həkimlər onun ciyərinə yığılan suyu çəkməklə öz işlərini bitmiş hesab edirlər. Lakin doğmalarının xüsusi narahatlıqla verdikləri məlumata görə, qəhrəman döyüşçümüzün sağalması tamamilə mümkündür. Bunun üçün sadəcə olaraq ailənin imkanları çox məhduddur.

Əziz dostlar!

Məlumat üçün bildirim ki, Sərvər Rəcəbov Özbəkistanın Fərqanə vilayətindəki hadisələrdən dolayı oradan didərgin düşmüş mesxeti türklərindəndir. Azərbaycana gəldikdən sonra isə Xocalıda məskunlaşaraq burada milis (polis) sıralarında xidmət edib. Bu zaman Xocalıya ermənilərin hücumları başlayıb. Ona görə də S.Rəcəbov Xocalı Özünümüdafiə batalyonunu yaradaraq Xocalı ətrafında postların qurulmasını və şəhərin qorunmasını təşkil edib. 1989-cu ildən 26 fevral 1992-ci ilə - Xocalı soyqırımı gününə qədər. Həmin gün o da ailəsi - anası, qardaşı və cəmi beş gün əvvəl doğulmuş körpəsini götürüb Xocalı əhalisi ilə birgə böyük məhrumiyyətlərdən keçərək Ağdam ərazisinə gəlib çıxa bilib.

Sərvər ailəsini təhlükəsiz yerə çıxardıqdan sonra yenə Qarabağa - ermənilərlə döyüşə qayıdıb və Xocalı batalyonunu bərpa edib. Burada da böyük qəhrəmanlıqlar, şücaətlər göstərib. Xalqımız qarşısında fədakarlıqlarını nəzərə alan mərhum dövlət başçısı Heydər Əliyev Sərvər Rəcəbovu "Azərbaycan bayrağı" ordeni ilə təltif edib.

Əziz dostlar!

Həyatını Azərbaycan uğrunda səfərbər etmiş Sərvər Rəcəbovun indi Azərbaycan dövlətinin və xalqının yardımına ehtiyacı var. Sərvərin ailəsi onun müalicəsinə kömək etmək üçün müvafiq dövlət qurumlarına, imkanlı şəxslərə müraciət etməyinizi, ən azı sabiq döyüşçünün sağlıq durumunun kritikliyini ictimailəşdirməyinizi istəyir. Bu həyəcan təbilinin iştirakçısı olmaqsa hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur...

Bu məzmunda müraciəti əksər media qurumlarına təcili ünvanladım. "Axısxa türkü olan "Azərbaycan bayrağı" ordenli döyüşçü ölüm ayağındadır" başlıqlı yazı ilə Modern.az, Day.az, Publika.az, Avropa.info və digər saytlarda çalışan dostlarımız həmin məlumatı anındaca tirajladılar. Bu bizi bir qədər ürəkləndirdi də...

### "Ruhu bizimlə qalar"

Bir gün sonra bu məlumatı daha geniş media şəbəkəsinə çıxarmaq istəyirdim ki, bu anda... artıq dostlaşdığımız Nazim mənə telefon açdı. Və həyəcanlı səslə Sərvərin dünyasını dəyişməsi xəbərini verdi. Bu xəbəri almaq mənim üçün də çətin oldu. "Azərbaycan bayrağı" ordenli döyüşçümüz, məşhur qəhrəman, əslən mesxeti türkü olan Sərvər Rəcəbovun dünyasını dəyişməsi xəbərindən ikimiz də sarsıldıq. Nə yaxşı ki, onun müsahibəsini yaza bilmişdim. Müraciətimin ardınca Sərvərin ölüm xəbərinə yazdığım başsağlığı-nekroloqunu mediaya ünvanlayası oldum. Nekroloqu da bir çox media qurumları mənə istinadla məyusluqla ictimailəşdirdilər. Sosial şəbəkələrdəki dostlar başdan-başa Sərvərin ölümündən yazdılar. Şair-publisist dostumuz Əli Rza Xələfli nekroloqun altından belə bir şərh yazmışdı: "Ruhu bizimlə qalar, inşallah, səsi isə dostum Nəzirməmməd Zöhrablının qələmində görüşümüzə gələr".

Gözəl yanaşmaydı. Qəhrəmana qəhrəmansayağı əsgər sayğısı olsun bu biz dostlardan. Rahat yat, komandir! Kaş biz də sənin ruhuna Xocalının azadlıq salamını ərməğan edə biləək!

### Sərvər: "Füzuli tüfənglə erməniləri gəbərdə-gəbərdə meşələri gəzirdi"

Nazimlə gəldiyimi görüb çox sevinir. Yataqdan qalxa bilməsə də, keçmiş döyüşçü dostlar bir-birinə sarılıb xeyli qucaqlaşıb öpüşürlər. Bu anı bütün təfsilatı ilə yazıya gətirmək çox çətindi, onu ancaq əyani şəkildə gözlə görmək mümkün idi. Üstəlik, onların görüşünə səbəb olmağımın fərəhini yaşamaq səadətinin mənə verdiyi rahatlığın da bu məqamda xüsusi yeri görünürdü!..

Bütün varlığı və manerası ilə hərbçi xarakterini bu halında da canında yaşadan Sərvərin Nazimdən ilk soruşduğu söz dostunun övladları barədə olur. Nazim "böyük oğlum bu yaxınlarda karate və kepling dzü-do üzrə üçqat dünya çempionu oldu" deyən kimi dostunun övladının uğurundan sonsuz mütəəssir olan Sərvərin sevincdən gözləri yaşardı. Sabiq hərbçi-komandir bu anda bəlkə də bütün ağrılarını unudaraq bizimlə söhbətə davam etdi. İlk yadına düşən oğlunun Xocalı faciəsindən az öncə doğulması faktını xatırlaması oldu:

- Xocalı faciəsi günü mənim oğlum Azad cəmisi beş gün idi doğulmuşdu.

- Siz Xocalıya Fərqanə hadisələrindən sonra gəlib çıxmısız?

- Bəli.

- Bəs necə oldu ki, sizi Xocalıda məskunlaşdırdılar?

Sərvəri yoluxmağa gələn həmkəndlilərindən biri kənardan müdaxilə edir söhbətimizə:

- Demişdilər orda fin evləri tikiblər, gedin yerləşin o evlərdə.

Sərvər etiraz edərək söyləyir ki, Xocalıda məskunlaşmalarının əsas səbəbi bu deyil. Əslində o da, qardaşı da polis işçisi olduqlarından onları Stepanakert (Xankəndi - N.Z.) polis idarəsinə göndəriblər. Böyük qardaşı polkovnik, o isə baş leytenant rütbəsində olub o zaman. Onları buraya Daxili İşlər Nazirliyindən təyin edibmişlər.

- Köçdünüz ora, fin evlərində yaşamağa başladınız...

- Hə. Qardaşımı Şuşa həbsxanasına rəis müavini təyin etdilər, məni isə Xocalıya verdilər.

Bu zaman bizə evdə bişirilən "özbək plovu" gətirirlər. Ac olmadığımızı deyirik. Sərvər bir zabit təkidilə "əgər çörəyimdən yeməsəniz, danışmayacağam!" deyəndən sonra Nazimlə hərəmiz bir az plovun dadına baxmalı oluruq. "Özbək plovu" mənə Uzaq Şərqdə - keçmiş SSRİ-nin Xabarovsk vilayətindəki hərbi qulluq illərimi xatırladır. Orda aşbaz işləyən özbək əsgərlər bu plovdan bişirərdilər xüsusi, əlamətdar günlərdə. Təbii ki, bizim plov bütün çeşidlərilə daha dadlı-ləzzətlidir. Ancaq əsgər üçün o zaman fərqli nəyinsə, xüsusilə plov adına nəyinsə ələ düşməsi xüsusi bir bayram ovqatı sərgiləyirdi. Əlqərəz, bu plovun adını eşidincə bir anlığa 35 il öncəyə qayıdıram xəyallarımda. Bu öz yerində, amma fürsəti fövtə vermək olmaz. Sərvərin könlünü qırmamaq və onu danışdırmaq lazımdı. Açığı, Sərvərin bu halını gördüyümüzdən iştahla yeyə bilmirik. Yoxsa "özbək plovu"nun tanış-nostalji dadına baxmaq elə də pis olmayacaqdı. Əlqərəz, iştahsız da olsaq, Sərvəri razı salmaq üçün bir az yeyib söhbətimizə davam edirik. Deyir Füzulini Xocalıya düşən kimi tanıyıb. Səbəbi Füzulinin qoçaqlığı, o çətin günlərdə fərqlənməyi, ermənilərə rahatlıq verməməyi olubmuş.

- Baş qərargah rəisi olduğunuz Xocalı Özünümüdafiə Batalyonunu yaratdıqdan sonra onun tərkibinə qoşulduğuna görə tanış oldunuz Füzuli ilə?

- Yox. Ondan xeyli əvvəldən. Füzuli oğuluydu, oğul! Füzuli bir yerdə dayanıb-duran oğul deyildi. Gecə-gündüz çiynində tüfəng gəzərdi meşələri. Erməniləri gəbərdə-gəbərdə. Heç kim getməsə də, o bu Nazimgillə bərabər gedib erməninin "anasını ağladıb" gəlirdi. Əsgəranda, Həsənabad kəndində, başqa kəndlərdə. Çox "boyevoy" (döyüşkən - N.Z.) oğlan idi.

- Sərvər müəllim, mən sizə demişdim telefonda. Məlumunuz olsun deyə bir daha bildirim ki, bu, Mədəniyyət Nazirliyi Xatirə Kitabı redaksiyası ilə "Bakı Xəbər" qəzetinin birgə layihəsi əsasında yazılan kitabdı. Hər dəfə bir şəhidimizə həsr olunur. Bu dəfə məsləhət oldu ki, Füzulidən yazılsın, Füzulinin bir bacısından başqa heç kiminin olmadığını söylədilər. İndi biz o kitabı çapa hazırlayırıq. Füzulinin bacısı Fiqurə xanımı da, Nazimi də, digərlərini də danışdırmışam. İndi növbədə sizsiniz həmsöhbətim...

- Lap yaxşı. 1989-cu il noyabrın 19-da Xocalı Özünümüdafiə Batalyonu yarandı. 1990-cı ilin yanvarında isə tam fəaliyyətə başladı. Batalyonun əsas funksiyası oldu camaatı, kəndi qorumaq, növbə ilə erməniyə qarşı səngərlərdə, postlarda dayanmaq, bir də əməliyyatlar keçirmək. Bu idi fəaliyyətimiz. Batalyona ilk qoşulanlardan biri Füzuli oldu.

- Məsələn, Nazim deyir ki, ən çətin, ən etibarlılıq tələb edən işləri Füzuliyə həvalə edirdik. Hətta Əlif Haciyevlə məsləhətləşib sonradan Azərbaycanın Milli Qəhrəmanı adını almış cəsur döyüşçü, Xocalıda yaralı yatan Aqil Quliyevi Ağdama çatdırmağı da Füzuliyə tapşırmağı planlaşdırıbmışlar. Sadəcə olaraq, plan Xocalının sonuncu günlərinə təsadüf etdiyindən, yollar çox təhlükəli olub deyə, nəticədə bu niyyət baş tutmayıb...

- Çox qəhrəman oğul idi. Nədənsə çəkindiyinin şahidi olmadım. Hara desən başı üstə gedirdi. Getdiyi işi də yüz faiz yarıdıb qayıdırdı. Gedib kəşfiyyat aparırdı. Gəlib xəbər verirdi ki, orada nə qədər erməni, nə qədər silahları var. Çox zaman onların silahlarını götürüb gətirirdi. İnanın ki, Füzuli batalyonu silahla təmin edirdi.

Nazim qoşulur bu yerdə söhbətimizə:

*(Ardı növbəti sayımızda)*

**Azərbaycan Mikromaliyyə Assosiasiyasının (AMFA) üzvü olan kredit təşkilatları koronavirus pandemiyasının nəticələrindən zərər çəkən müştərilərinə güzəştlərə başlayıblar.**

# Mikromaliyyə Assosiasiyasından bütün Azərbaycan banklarına nümunə - kreditlərə güzəşt edilə bilər

***Əkrəm Həsənov:*** *"Banklar hazırkı dönəmdə kredit tətili elan etsə yaxşı olar"*




AMFA-nın yaydığı məlumatda qeyd olunur ki, güzəştlər Assosiasiyanın üzvü olan bank və bank olmayan kredit təşkilatları (BOKT) tərəfindən təqdim edilir. Buraya gecikdirilən kreditlərə görə cərimə faizlərinin hesablanmaması, kreditlərin restrukturizasiyası, eləcə də digər xidmətlər üzrə güzəştlər aiddir.

Maraqlıdır, digər banklar və bank olmayan kredit təşkilatlarında olan kreditlər necə olacaq? Ümumiyyətlə, bütün banklar pandemiya dövründə kreditlərə güzəşt edə bilərmi?

Məsələ ilə bağlı fikir bildirən bank sahəsi üzrə ekspert Əkrəm Həsənov qeyd etdi ki, mikromaliyyə təşkilatı deyiləndə bank olmayan kredit təşkilatları nəzərdə tutulur. Bu kredit təşkilatları da müştərilərə güzəşt edəcəklərini deyirlər: "Amma soruşmaq lazımdır ki, nəyin güzəştin edəcəklər? Kredit təşkilatları kreditin vaxtını uzadırlar. Bu da, əslində, ödənilməli olan faizlərin miqdarını çoxaldır. Yaxşı olardı ki, həmin kredit təşkilatları güzəştlərinin nədən ibarət olacağını açıq şəkildə desinlər. Çünki onların əksər hallarda dedikləri güzəşt olmur. Sadəcə olaraq vaxt uzadırlar. Bu da onların faiz gəlirlərini artırır. Prinsipcə, bunu banklar da edirlər. Yəni bu elə də ciddi məsələ deyil.

> *"Kredit təşkilatları müştərilərə güzəşt edəcəklərini deyirlər, amma soruşmaq lazımdır ki..."*

Onu da bildirim ki, aprel ayında Mərkəzi Bank hər bir halda banklara tövsiyə edib ki, sentyabrın 30-na qədər cərimə hesablamasınlar. Yəni müştəri krediti ödəmirsə, faiz hesablanmasın və gecikdirilən kreditləri də problemli kreditlər kimi qeydə almasınlar. Bu məsələ var. Amma bankların bəziləri bu tövsiyəyə əməl edir, bəziləri isə əməl etmirlər".

**Ə.Həsənov təklif edir ki, banklar hazırkı dönəmdə kredit tətili elan etsinlər: "Kredit tətilini də sırf bankların hesabına etmək olmaz. Çünki bankların o qədər itkiyə məruz qalmaq gücləri yoxdur. Kredit tətili elan edilməsi üçün dövlət banklara kömək olmalıdır".**

*Günel CƏLİLOVA*

---

**İngiltərənin Oksford Universiteti deksametazon adlı dərmanın ağır koronavirus xəstələrinin müalicəsinə yaradığına dair araşdırma aparıb. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus bildirib ki, bu, oksigen və ventilyasiya dəstəyinə ehtiyac duyan xəstələrdə ölüm risqini aşağı saldığını göstərən ilk müalicədir.**

# "Deksametazon koronavirusa qarşı dərmandır" sözü eşidilən kimi apteklərimizə hücum başlayıb - həkimlər nə deyir...

***Adil Qeybulla:*** *"Azərbaycanda da deksametazondan koronavirusa yoluxmuş xəstələrin müalicəsində istifadə olunur, ancaq xəstə..."*

***Nuran Abdullayev:*** *"...bu məsələni çox da böyütmək və insanların hissləri ilə oynamaq lazım deyil"*

O deyib ki, ÜST-in klinik bələdçisi dərmanın COVID-19 xəstələrində necə və nə zaman istifadəsinə dair bütün təlimatları göstərəcək. Bu xəbər yayıldıqdan sonra insanlar apteklərə üz tutaraq deksametazon adlı dərmanı almağa üstünlük verirlər. Əksər aptekdə adıçəkilən dərman çatışmazlığı yaşanır.

Maraqlıdır, adıçəkilən dərman doğrudanmı koronavirusu müalicə edir?

Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Köln Universiteti Klinikasının tibb elmləri doktoru Nuran Abdullayev bildirdi ki, sözügedən tədqiqatın nəticələri son günlər geniş müzakirə olunur və deyilən şəkildə dərc olunarsa, təbii ki, bu, bir elmi uğurdur: "Ancaq nəzərə almaq lazımdır ki, "artıq deksametazon virusun tam müalicə üsuludur" deyərək bu məsələni çox da böyütmək və insanların hissləri ilə oynamaq lazım deyil. Bu tədqiqat o demək deyil ki, hər COVID-19 virusuna yoluxmuş şəxs bu preparatı apteklərdən əldə edib müalicəsində istifadə edə bilər. Bu dərman yalnız həkim təyinatı ilə və həkim nəzarəti altında qəbul edilməlidir. Preparatın təsirinin müsbət effekti isə tədqiqatda yalnız ağır tənəffüs çatışmazlığı olan xəstələrdə müəyyən edilib ki, bu da, əslində, praktiki təcrübələrdə digər Avropa və Asiya ölkələrində öncədən istifadə olunurdu".

Professor, tibbi ekspert Adil Qeybulla vurğuladı ki, deksametazon bədəndə istehsal olunan bir hormondur. Dərmanın antiiltihabi xüsusiyyəti var və demək olar ki, gündəlik praktikada istifadə olunur: "COVID-19-un konkret müalicəsi yoxdur. Söhbət qabaqlayıcı tədbir kimi profilaktikadan gedirsə, konkret virusu öldürən bir dərman lazımdır. Bu dərman remdesivirdir və artıq təcrübəyə buraxılıb, insanlar üzərində tədqiqatlar aparılır. Digəri isə vaksindir ki, bu, hələ istehsal olunmayıb. İstehsal edildəndən sonra bu vaksinin özünü necə aparması çox böyük sual altındadır. Ümumiyyətlə, deksametazon, prednizalon, diplastiya və digər bir sıra dərmanlar müalicə prosesində işlədilir".




Həmsöhbətimiz onu da əlavə etdi ki, koronavirusda ölüm hallarının əsasında iki başlıca amil dayanır: "Birincisi, aktiv pnevmoniya, ikincisi, statin tufanı nəticəsində ağ ciyər toxumalarının zədələnməsindən qaynaqlanan ağ ciyər çatışmazlığı. Bu mənada, deksametazon bu prosesə immunosuppressedan təsiri göstərib bir az zəiflədir. Amma bu, məsələnin həlli deyil. Yayılan məlumatlarda qeyd edilir ki, deksametazon bu situasiyalarda ölüm risqini üçdə bir qədər azaldır. Bəli, hormonal terapiya müəyyən qədər ölüm risqini aşağı salır. İnsanlar illüziya axtarırlar. Amma illüziyaya qapılmaq gərək deyil, virusun insanlara yoluxmasının qarşısını almaq üçün qoruyucu vasitələrdən istifadə olunmalı, sosial məsafə gözlənilməlidir və dezinfeksiya tədbirlərinə, eləcə də karantin davranışlarına riayət etmək vacibdir. Buna əməl edilsə, daha yaxşı olar".

A.Qeybullanın sözlərinə görə, Azərbaycanda da deksametazondan koronavirusa yoluxmuş xəstələrin müalicəsində istifadə olunur: "Bu preparatı bir çox məqsədlə istifadə edirik. Hormonal dərmanların çox istifadəsi böyrəküstü vəzin çatışmazlığını yarada bilər. Bu baxımdan sözügedən dərmanlardan istifadə və kəsmə prosesi fərqli olmalıdır. Dərmanın kəsilməsi zamanı sindrom yaranır ki, bu da ciddi problemlərə yol açır. Ümumiyyətlə, müalicə həkimlərin işidir. Xəstə özbaşına durub deksametazon vurdura bilməz. Bu, ancaq müalicə prosesində sırf həkimlərin verdiyi qərardır".

*Günel CƏLİLOVA*

№ 97 (4228) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

19 İYUN 2020-ci il

www.baki-xeber.com

## Yaponiya şirkətləri mikrob əleyhinə parça hazırlayıblar

**Yaponiyanın elektronika sahəsində tanınmış "Murata Manufacturing" və toxuculuq sahəsində fəaliyyət göstərən "Teijin Frontier" şirkətləri birlikdə mikroblara qarşı elektrik enerjisindən istifadə edən parça hazırlayıblar.**

AZƏRTAC xəbər verir ki, bu barədə həmin şirkətlərin prezidentləri Osakada keçirilən mətbuat konfransı zamanı bəyan ediblər. Bildirilib ki, həmin parçadan hazırlanmış istənilən geyimi istifadə edən insan hərəkət zamanı bu materialı ya dartır, ya da sıxır. Nəticədə elektrik enerjisi yaranır ki, həmin enerji də kimyəvi maddələrdən və ya üzvi həlledicilərdən istifadə etmədən mikrobların sayını azaldır. Bu, eyni zamanda, ətraf mühitə də müsbət təsir göstərir. Həmin şirkətlər "Pieclex" adlanan parçadan istifadə etməklə idman geyimləri, corablar, tibbi maskalar və digər məhsullar istehsal etməyi planlaşdırırlar. Bu məhsulların satışına isə gələn ilin martında başlamaq nəzərdə tutulur. Həmçinin, bu materialın virusa qarşı da səmərəli olduğu bildirilir.




Hazırda onun koronavirusa qarşı istifadəsinin mümkünlüyü araşdırılır. Yeni məhsulu yüksək qiymətləndirən "Murata Manufacturing" şirkətinin prezidenti Murata Tsuneo deyib: "Bu, gələcəyin sərhədsiz imkanlara malik elektrikli parçasıdır".

## Elan

Şəki rayonu, I Biləcik kənd sakini Məmmədov Şaban Mustafa oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 276 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, İnçə kənd sakini Salmanova Gülçıraq Kərim qızının və ailə üzvlərinin adına verilmiş JN: 136 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

**"Bərdə Broyler" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!**

22 iyun 2020-ci il tarixində, saat 10:00-da, Bərdə rayonu, 866 saylı yeni qəsəbə, Qalayçılar klubunda Cəmiyyətin səhmdarlarının keçirilməsi nəzərdə tutulmuş növbəti ümumi yığıncağı COVID-19 pandemiyası və karantin rejimi ilə əlaqədar qeyri-müəyyən müddətə təxirə salınır.

Səhmdarların növbəti ümumi yığıncağının vaxtı barədə əlavə elan veriləcək.

Səfərov Elgün Telman oğlunun adına, 99NN052 dövlət qeydiyyat nişanlı Wolsfagen Golf markalı avtomaşının texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Yankova Svetlana Viktorovnaya məxsus, Bakı şəhəri. Xətai rayonu, İnqilab İsmayılov küçəsi, ev 44, mənzil 110 ünvanına verilmiş çıxarış (seriya RX N 1366356) itdiyi üçün etibarsız sayılır.

Sadıxov Emin İkrəm oğlunun adına, Bakı şəhəri, Mərdəkan qəsəbəsi, 1666 B saylı qeydiyyat vəsiqəsi, (çıxarış, şəhadətnamə) itdiyi üçün etibarsız sayılır.

Rüstəmov Ramin Elbrus oğlunun adına, Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsində yerləşən torpaq sahəsinin çıxarışı (seriya MA N0357928 qeydiyyat N1112017551) itdiyi üçün etibarsız sayılır.

## Türk qəhvəsinin faydaları...

**Qəhvənin qoxusu hüzur, dadı xoşbəxtlik bəxş edir. Gündə bir fincan türk qəhvəsi içsəniz, orqanizmdə baş verən dəyişikliklər sizi təəccübləndirəcək. "Mil-li.Az" xəbər verir ki, ürəkdə çırpıntıya səbəb olar deyə içməkdən çəkindiyimiz türk qəhvəsi, əslində, gündə bir dəfə içilərsə, sağlamlığa inanılmaz fayda verər.**

Qəhvənin tərkibində yer alan kofein maddəsi alzheimer xəstəliyinin qarşısını alır. Gündə bir fincan türk qəhvəsi beyin sağlamlığını qoruyur. Şirniyyat yeməyə meylli insanlar qəhvə içdikləri zaman şəkər aludəçiliklərindən xilas ola bilərlər. Kofein orqanizmin yağ yandırması üçün sinir sisteminə siqnal göndərərək, eyni zamanda, qanda adrenalini nizamlayır.

Qəhvənin ürəyə faydalı olub-olmaması elm adamları tərəfindən hələ də araşdırılır. Lakin qəhvə heç bir halda ürək ritminin pozulmasına səbəb olmur. ABŞ-da aparılan araşdırmada məlum olub ki, davamlı olaraq qəhvə içənlər digər insanlara görə depressiyaya daha az meyl edirlər. Belə ki, türk qəhvəsi güclü antioksidantdır. Qanda antioksidantı artıraraq, stresslə mübarizə aparaaraq xəstəliyə yoluxmanın qarşısını alır.

## Kəhrəba - həm bəzək, həm də müalicə daşı

**Sarımtıl və bal rəngində olan kəhrəba təbiətin əvəzsiz hədiyyəsidir. Onu çox vaxt daş hesab etsələr də, digər qiymətli daşlardan fərqli olaraq, nəsli kəsilmiş şam ağacının ifraz etdiyi şirədən yaranır. Ağac şirəsi min illər keçərək sərtləşir və kəhrəbaya çevrilir, sonra torpağa qarışır və kəhrəba yatağı əmələ gətirir. Elə buna görə də kəhrəba daha qiymətlidir. Ondan təkcə bəzək əşyası kimi deyil, həm də müalicəvi məqsədlərlə istifadə olunur.**

"Milli.Az" bildirir ki, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun həkim-terapevti Taleh Abbasov AZƏRTAC-a deyib: "Qədim Roma və Çin imperiyasında kəhrəba bəzək əşyası kimi və türkəçarə müalicələrdə çox geniş istifadə edilib. Müasir təbabətdə geniş tətbiq olunmasa da, xalq təbabətində yuxarı tənəffüs yollarının infeksiyasında, triod vəzi xəstəliklərində, bronxit, astma kimi allergik problemlərin həllində və depressiyada çox geniş tətbiq olunur. Kəhrəba insan bədənindəki artıq yağları özünə çəkəndən sonra torpağa basdırılır və ona yenidən canlanma verir". Mütəxəssislər hesab edirlər ki, daşın ölçüsü nə qədər böyükdürsə, faydası da o qədər çoxdur. Onun birbaşa dəriyə təmas etməsi isə daha yaxşıdır.





**Qoç** - Çətinliklər çox olsa da, geri çəkilməyin. Səbrli və qətiyyətli olun, problemləri dəf etməyə çalışın. Yeni işgüzar münasibətlər başlaya bilər. İş yerinin dəyişdirilməsi ilə bağlı təkliflər alacaqsınız.



**Buğa** - Nəzərdə tutduğunuz işləri həyata keçirmək üçün səylə çalışın. Qarşınızda yeni imkanlar və perspektivlər yaranır. Maraqlı ideyalarınız az deyil. Onları həyata keçirməmək üçün ciddi səbəblər yoxdur.



**Əkizlər** - İdeyalarınızın hamısını həyata keçirmək mümkün deyil. Peşəkar fəaliyyət müstəvisindəki mühüm məsələlərin reallaşdırılması zamanı tələsikliyə yol verməyin. Ciddi səhv, yanlışlıq riski var.



**Xərçəng** - Günün ilk yarısı əlverişlidir. Məhsuldar fəaliyyət, konstruktiv işgüzar təmaslar zamanıdır. Aktual məsələlər nə qədər çətin olsa da, onları həll etmək çətin deyil. Məmurlar, dövlət orqanlarının mənsubları ilə ünsiyyət üçün pis vaxt deyil.



**Şir** - Uzun müddətdən bəri qurduğunuz, amma həyata keçirə bilmədiyiniz planların reallaşdırılması üçün əlverişli gündür. Prinsipial olaraq yeni işə başlamaq olar. İntuisiyanıza inanın.



**Qız** - İstənilən səviyyədə işgüzar danışıqlar aparmaq üçün əlverişli zamandır. Nüfuzlu insanlarla söhbət zamanı özünüzlə bağlı xoş təəssürat yaratmağa çalışın. Bilik və bacarıqlarınızı nümayiş etdirin.



**Tərəzi** - Təbəddülatlı, qarışıq, laübəli gündür. Nikbin olun. Başladığınız işləri bitirməyə, ciddi səhvlərə yol verməməyə çalışın. Bütün səylərə rəğmən işlər istədiyiniz kimi olmayacaq.



**Əqrəb** - Ağır və qarışıq da olsa, uğurlu gündür. İşdə həmkarlarla rəhbərlik səbr kasanızı doldurmağa, emosiyalarınızı tarıma çəkməyə çalışacaqlar. Kobud səhvlərə yol verməyin, təxribatlara uymayın.



**Oxatan** - Bütün problemləri təkbaşına, müstəqil şəkildə həll etməyə çalışmayın. Məsləhət və ya yardım ala biləcəyiniz insanlar yanınızdadır. Dostluq və romantik münasibətləri yeniləmək üçün münasib zamandır.



**Oğlaq** - Peşəkar fəaliyyət baxımından uğurlu gündür. Maliyyə məsələlərinin həllində ehtiyatlı olun. İzafi xərclərə yol verməyin. İşgüzar maraqlarınızla yanaşı, həyata baxışlarınızı bölüşən insanla əməkdaşlığa başlamaq üçün əlverişli vaxtdır.



**Dolça** - İşgüzar danışıqlar və görüşlər üçün əlverişli gündür. Az sonra əməkdaşlıq edəcəyiniz insanlarla aktiv ünsiyyətdə olun. Həddən artıq tələbkar, təmaslarınıza diqqət verən insanda özünüzlə bağlı xoş təəssürat yaratmağa çalışın.



**Balıqlar** - Mənfi təmayüllərin təsiri artır. Neqativ durum daha çox peşəkar fəaliyyət sahəsində özünü göstərir. Bir çox işlər alınmayacaq. İlk baxışdan heç bir səbəb olmadan fəaliyyətdə problemlər yaranacaq.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Ağır qaraciyər xəstəliyinin asan müalicə yolu tapıldı

**Yaşıl çay ekstraktının və fiziki məşğələlərin kombinasiyası qaraciyər piylənməsi kimi ağır xəstəliyin fəsadlarının 75%-ni aradan qaldırır.**

"MedicalXpress" xəbər verir ki, bu nəticələr siçanlar üzərində aparılan tədqiqatlar sayəsində əldə edilib. "Saglamolun.az"-a istinadən bildirir ki, tədqiqatlar zamanı bir qrup siçana 16 həftə ərzində yağlarla zəngin qida veriblər.

Bundan əlavə, bu siçanlar yaşıl çay ekstraktı ilə qidalanaraq mütəmadi olaraq xüsusi idman təkərində qaçıblar.

Digər qrup isə yalnız yağlı qida alıb. Tədqiqatın sonunda ikinci qrupla müqayisədə birinci qrupdakı siçanların qaraciyərində dörd dəfə daha az lipid ehtiyatlarının olması müəyyən edilib. Beləliklə, yaşıl çay içməklə məşq etməyin qaraciyər piylənməsinə qarşı səmərəli mübarizə metodu ola biləcəyi təsbit edilib.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.